QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 099 (5571) 24 **may** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır

*İlham Əliyev: "Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik"*

Səh 2



4

"Mən çox istərdim ki, hər bir azərbaycanlı milli mənsubiyyətini itirən "məşhur ssenarist"ə münasibət bildirsin"



4

"Rüstəm İbrahimbəyov filmdə qorxaq azərbaycanlı obrazını yəqin ki, özünü düşünərək yaradıb"



10

Rüstəm İbrahimbəyov - gerçək xəyanətin "siması"



# Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır

## *İlham Əliyev: “Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik”*



Bu gün Azərbaycanda proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf tam təmin edilir və bir çox sosial layihələr icra olunur. Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə dövlət başçısı, bir daha bəyan etdi ki, Azərbaycan bütün istiqamətlərdə uğurla inkişaf edir. Bu inkişafın təməlində Ulu Öndər Heydər Əliyev siyasəti dayanır: “Biz bu siyasətə sadiqik, biz tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik. Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, biz bundan sonra da həmişə inkişaf və tərəqqi yolu ilə gedəcəyik”. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, ölkəmizdə bütün sosial layihələr uğurla icra edilir: “Heç bir sosial layihədə heç bir yubanma yoxdur. Hətta bizim üçün o qədər də asan olmayan, əvvəlki böhranlı illərdə də sosial layihələr tam miqyasda icra edilmişdir”. Həqiqətən də son illər Azərbaycanda bir dənə də olsun sosial layihə təxirə salınmayıb. Dövlət başçısının şəxsən nəzarət etdiyi bu layihələr tam miqyasda icra edilib. Elə bunun nəticəsidir ki, bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının son 15 ildə Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara və yeni dövrün reallıqlarına uyğun yaradıcılıqla davam etdirilməsi ölkə həyatının bütün sahələrində heyrətamiz tərəqqinin əldə olunmasına səbəb olub. Həyata keçirilən ardıcıl islahatlar sayəsində ölkəmiz özünün iqtisadi müstəqilliyinin təmin olunması yolunda uğurlu addımlar atıb.

Hətta iqtisadi böhran fonunda öz inkişaf tempini qoruyub- saxlaya bilən Azərbaycan nəzərdə tutulmuş bütün ümummilli proqramların, qlobal enerji və nəqliyyat layihələrinin icrasını uğurla başa çatdırmağa müvəffəq olub. Sevindirici haldır ki, hazırda beynəlxalq maliyyə qurumları, bir sıra mötəbər təşkilatlar da Azərbaycanda gedən inkişaf və tərəqqi meyillərini, birmənalı olaraq, etiraf edir və yüksək qiymətləndirirlər.

Bütün sahələrdə tam şəffaflığın yaradılması üçün daim aidiyyəti qurumlara ciddi tapşırıqlar verən dövlət başçısı bildirdi ki, hazırda baş verən hadisələri izləyərkən, bir daha dünyada sosial sahədə pozuntuların olduğu hər kəsə bəlli olur. Bu sahəyə diqqətin göstərilməməsi və xoşagəlməz halların kütləvi xarakter alması böyük çətinliklərə, problemlərə və toqquşmalara gətirib çıxarır. Lakin Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: “Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində biz uğurla inkişaf edirik”.

Prezident İlham Əliyev bildirir ki, bu gün Azərbaycanda məktəblərin, xəstəxanaların, sosial obyektlərin tikintisi, insanların maddi vəziyyətinin yaxşılaşdırılması və infrastrukturla bağlı olan layihələrin icrası davam etdirilir. Dövlət başçısı hər bir rayonda və hər bir kənddə bu məsələlərə xüsusi diqqət göstərildiyini vurğuladı. Son 15 ildə ölkəmizdə 642 tibb müəssisəsi, 43 Olimpiya-idman kompleksi, 443 körpü-tunel, 3100-dən çox məktəbin inşa edilməsi, 265 min köçkünün yeni evlərlə, mənzillərlə təmin olunması, 30 elektrik stansiyası, 4 su anbarı və 7 aeroportun tikilməsi, qazlaşdırmanın 93 faizə, fasiləsiz içməli su ilə təminatın 26 faizdən 67 faizə çatması, bütün deyilənləri bir daha təsdiqləyir ki, ölkədə heç bir sosial layihə təxirə salınmayıb. Əldə edilmiş nəticələr və bu ilin uğurlu göstəriciləri də, tam deməyə əsas verir ki, Azərbaycan bu düzgün yolla addımlayır və bu günə qədər həllini tapmayan məsələlər yaxın gələcəkdə öz həllini tapacaq.

Azərbaycan dövlətinin möhkəm əsaslar üzərində qurulduğunu söyləyən Prezident İlham Əliyev vurğuladı ki, dövlət iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir. Ancaq bununla bərabər, sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Məhz bunun nəticəsində Azərbaycanda sabitlik, əmin-amanlıq hökm sürür və xalq-iqtidar birliyi gündən-günə möhkəmlənir. Bu gün Azərbaycan inkişaf, sabitlik və xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilib. Danılmaz həqiqətdir ki, siyasi sabitlik və qarşılıqlı inam olmayan yerdə sürətli inkişafa nail olmaq mümkün deyil. Cənab İlham Əliyev bu amili klassik şəkildə dəyərləndirərkən, qeyd edib ki, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf da olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq və sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir. Ölkənin ümumi sosial-iqtisadi inkişafı da çox müsbətdir: “Üç ayın göstəriciləri bizi çox sevindirir. İndi bir neçə gündən sonra dörd ayın yekunları da veriləcək. Əminəm ki, biz dinamikanı nəinki saxlayacağıq, həm də artıracağıq. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Sosial məsələlərin həllinə gəldikdə, bu günə qədər bir çox sosialyönümlü layihələr həyata keçirilibdir. Bu layihələrin həyata keçirilməsi davam etdiriləcək”.

Bütün bu məsələlərə şəxsən nəzarət edən dövlət başçısı, hər il olduğu kimi, bu il də verdiyi tapşırıqların icrası ilə yerində maraqlanır, yeni-yeni obyektlərin açılışlarını edir və əhali ilə görüşərək, problemlərlə maraqlanır. Bu da xalq-iqtidar birliyinin bariz təcəssümüdür. Bu, bir həqiqətdir ki, Azərbaycan 15 ildir ki, Cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu gələcəyə doğru inamla addımlayır. Məhz buna görə xalq aprelin 11-də yenidən Ulu Öndər Heydər Əliyevin layiqli davamçısına etimad mandatı verdi. Verdiyi bütün vədlərə sadiq qalaraq Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Cənab İlham Əliyev xalqının alternativsiz lideri olduğunu öz fəaliyyəti ilə sübuta yetirib. Son 15 ildə qazanılan nailiyyətləri isə yalnız biz deyil, beynəlxalq reytinq təşkilatları, biznes qurumları da öz hesabatlarında göstərirlər. Dövlət başçısı isə bu nailiyyətləri dəyərləndirərkən, qeyd edib ki, bütün bunlar verilən vədlərin uğurla reallaşması nəticəsində baş verib: “Bizim bütün planlarımız həyata keçirilir. Verdiyimiz bütün vədlər yerinə yetirilir. Son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd olmamışdır. Bu gün Azərbaycanın reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. Bu yolla uğurla gedəcəyik”.

***“Səs” Analitik Qrupu***

## Rəsmi xronika

Prezident İlham Əliyev Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin təmiri və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

* * *

Ukrayna Prezidenti Petro Poroşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

# Mir Cəlalın xatirəsinə həsr olunan hekayə müsabiqəsinin qalibləri mükafatlandırılıb

Mayın 23-də İçərişəhərdəki "Ədibin Evi"ndə Mir Cəlalın xatirəsinə həsr olunan hekayə müsabiqəsinin qalibləri mükafatlandırılıb. Müsabiqə müasir Azərbaycan ədəbi prosesinin və hekayə janrının inkişafına təkan vermək məqsədilə keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Xalq Yazıçısı, müsabiqənin münsiflər heyətinin sədri Elçin görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin zəngin yaradıcılığından, elmi və pedaqoji fəaliyyətindən və nəcib insani keyfiyyətlərindən söhbət açıb. Bildirib ki, böyük ədib və alim, görkəmli pedaqoq Mir Cəlal Paşayev müdrik insan, nəcib şəxsiyyət idi. Yazıçının müxtəlif janrlarda olan bədii əsərləri həm mövzu zənginliyi, həm də dil və üslub xüsusiyyətləri ilə diqqəti cəlb edir, böyük maraq doğurur.








Elçin qeyd edib ki, ictimai fikrin formalaşmasında və inkişafında böyük xidmətləri olan Mir Cəlal Paşayev XX əsr Azərbaycan ədəbiyyatının klassiklərindən biridir, böyük əsərlər, romanlar yazmasına baxmayaraq, hekayə janrı onun yaradıcılığında mühüm yer tutur. "Ədəbiyyatımızda hekayə janrının ötən əsrin ortalarında tam şəkildə formalaşmasında, aparıcı janrlarından birinə çevrilməsində görkəmli ədibin xüsusi rolu olub. Bu rol ikili səciyyə daşıyırdı. Mir Cəlal müəllim bir tərəfdən ədəbiyyatşünas alim kimi hekayə janrının mahiyyətini, xüsusiyyətlərini açıb göstərir, onun tədqiqi və təbliği ilə məşğul olurdusa, digər tərəfdən, özü hekayələr yazırdı. Bu mənada yazıçı hekayə janrının yüksək bədii-estetik səviyyəyə çatmasında mühüm rol oynayıb", - deyə Elçin vurğulayıb.

Ədəbi mühit barədə fikirlərini bölüşən münsiflər heyətinin sədri müsabiqəyə təqdim olunan hekayələrin ölkəmizdə bu janra olan maraqdan xəbər verdiyini qeyd edib, gənclərin dünyagörüşünün genişlənməsi və yaradıcılıq qabiliyyətinin püxtələşməsində mütaliənin böyük rolundan söz açıb.

"Ədibin Evi"nin əməkdaşı Elnur İmanbəyli məlumat verib ki, bu müsabiqədə yaş fərqi qoyulmasa da, iştirak edənlərin əksəriyyətini gənclər təşkil edib. Səkkiz ay davam edən müsabiqəyə altı dildə 389 hekayə, o cümlədən bölgələrdən 15 hekayə təqdim olunub. Müsabiqə iştirakçıları arasında 165 məktəbli, habelə 20 əcnəbi vətəndaş var. Qaliblər Xalq Yazıçısı Elçinin sədrliyi ilə tanınmış yazıçı və tənqidçilərdən ibarət münsiflər heyəti tərəfindən müəyyənləşdirilib. Sonra müsabiqənin qaliblərinə diplom və pul mükafatı təqdim olunub. İki nəfər ikinci, altı nəfər isə üçüncü yerə layiq görülüb. Qaliblər arasında ölkəmizin tanınmış qələm sahibləri ilə yanaşı, bu sahədə yeni addım atan gənclər, hətta məktəblilər də yer alıb.

Tədbirdə "Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə, "Mədəniyyət" telekanalının direktor müavini, Əməkdar İncəsənət Xadimi İlham Rəhimli, Xalq Şairi Nəriman Həsənzadə, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid görkəmli yazıçı Mir Cəlalın alim və müəllim kimi şəxsi keyfiyyətlərindən, yaradıcılığının özünəməxsusluğundan danışıb, onunla bağlı xatirələrini bölüşüblər. Qeyd edilib ki, müsabiqəyə təqdim edilən 389 hekayənin hər biri böyük sevgi ilə yazılıb və gənclərin hekayə janrına müraciət etmələri onların ədəbiyyata, mütaliəyə olan marağından irəli gəlir.



Alimin ailəsi adından oğlu, "ADA" Universitetinin rektoru, professor Hafiz Paşayev çıxış edərək tədbirin təşkilində zəhməti olan hər kəsə təşəkkürünü bildirib. Bu cür tədbirlərin milli-mənəvi dəyərlərin qorunmasına, ədəbi mühitin formalaşmasına müsbət təsiri olduğunu vurğulayıb. Görkəmli yazıçının oğlu, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev belə müsabiqələrin mütəmadi keçirilməsini təklif edib.





# Əli Həsənov: “Mən çox istərdim ki, hər bir azərbaycanlı milli mənsubiyyətini itirən “məşhur ssenarist”ə münasibət bildirsin”



Tanınmış kinorejissor Ayaz Salayev nəinki milli mənsubiyyətini, hətta insani keyfiyyətlərini də itirən, Azərbaycan xalqını daim aşağılamağa çalışan Rüstəm İbrahimbəyovun ssenari müəllifi olduğu “Qafqaz üçlüyü” haqqında “Bakinski Raboçi” qəzetində geniş tənqidi məqalə ilə çıxış edib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Facebook səhifəsində məqalə ilə bağlı aşağıdakı fikirlərini yazıb: “Mən çox istərdim ki, hər bir azərbaycanlı bu yazı ilə tanış olsun və təkcə milli hisslərini, milli mənsubiyyətini, milli dəyərlərini deyil, həm də adi insani keyfiyyətlərini itirərək haqqı, ədaləti və reallığı danan bu “məşhur ssenarist”ə münasibət bildirsin”. Əli Həsənov film haqqında yazdığı məqalədə əsl vətəndaşlıq mövqeyi nümayiş etdirdiyinə görə kinorejissor Ayaz Salayevə dərin təşəkkürünü bildirib.

# Zakir Həsənov NATO generalları ilə görüşüb



Mayın 23-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov NATO-nun Hərbi Tərəfdaşlıq İdarəsinin rəisi general-mayor Odd Egil Pedersen və Şimali Atlantika Alyansının Quru Qoşunları Komandanlığının qərargah rəisi diviziya generalı Erhan Uzun ilə görüşüb. SİA-nın Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, görüşdə Azərbaycanın NATO ilə əməkdaşlığa xüsusi önəm verdiyini bildirən Z. Həsənov vurğulayıb ki, Azərbaycan Ordusunun hərbi qulluqçuları Alyansın müxtəlif proqramlarında, xüsusilə də Əfqanıstanda həyata keçirilən “Qətiyyətli Dəstək” missiyasında daim iştirak edirlər.

Qonaqlar Azərbaycanın NATO üçün vacib tərəfdaş olduğunu qeyd edərək Alyansın qərargahlarında xidmət keçən, müxtəlif proqramlarında iştirak edən Azərbaycan zabitlərinin bilik və bacarığını yüksək qiymətləndiriblər. Ordumuzun şəxsi heyətinin yüksək peşəkarlığından və hazırlığından məmnun qaldıqlarını bildirən qonaqlar xüsusi qeyd ediblər ki, NATO-nun proqramları çərçivəsində keçirilən müxtəlif tədbirlərdə öz bilik və təcrübələrini bölüşən Azərbaycan zabitləri digər ölkələrdən olan həmkarları üçün layiqli nümunədirlər. Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Ordusunun kəşfiyyat bölüyünün 2-ci səviyyəli özünü qiymətləndirmə üzrə səhra təlimini izləmək üçün ölkəmizdə olan qonaqlar əvvəlki illərdə olduğu kimi bu dəfə də təlimin uğurla başa çatacağına əminliklərini bildiriblər.

# “Rüstəm İbrahimbəyov filmdə qorxaq azərbaycanlı obrazını yəqin ki, özünü düşünərək yaradıb”



“Biz Rüstəm İbrahimbəyovun dəfələrlə belə əməllərinin şahidi olmuşuq. Bu baxımdan məhz Rüstəm İbrahimbəyovun ssenari müəllifliyi ilə “Qafqaz üçlüyü” kimi filmin çəkilməsində də təəccüblü heç nə yoxdur”. Bunu apa-ya açıqlamasında ssenari müəllifi Rüstəm İbrahimbəyov, rejissoru Eldar Şengelaya, Fuad İbrahiumbəyov olan “Qafqaz üçlüyü” filmində azərbaycanlıların vəhşi, qəddar, riyakar, mədəniyyətsiz, milli kökü olmayan obrazda, ermənilərin isə alicənab, sülhsevər, “vəhşi türkün qurbanı” kimi təqdim olunmasına münasibət bildirən Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib. S.Novruzov deyib ki, R. İbrahimbəyovun bir müddət əvvəl Rusiya mətbuatında azərbaycanlıları aşağılayan yazısı dərc olunub: “O cümlədən digər xalqların nümayəndələrinin Bakıdan köçməsinin ziyalılıq səviyyəsinin aşağı düşməsinə səbəb olması, azərbaycanlıları vəhşi kimi qələmə verməsi barədə fikirlərinə müxtəlif mətbuat orqanlarına verdiyi müsahibələrdə, yazdığı yazılarda rast gəlmişik. Ermənilərlə şərikli filmlər çəkməsi, ermənilər tərəfindən maliyyələşməsi də dəfələrlə qeyd olunub. “Qafqaz üçlüyü” filmi də bunun davamıdır. Biz mütəmadi deyirdik ki, Milli Şura layihəsi ermənilər tərəfindən maliyyələşdirilir. Rüstəm İbrahimbəyovu Milli Şuranın sədri seçən, onu təmtəraqla prezidentliyə namizəd göstərən qüvvələr indi bu filmə diqqətlə baxsınlar, özlərini əsl azərbaycanlı hesab edirlərsə, münasibətlərini bildirsinlər. Rüstəm İbrahimbəyovun mitinqlərdə şəkillərini qaldıran o partiyaların sıravi üzvləri bu məsələdən xəcalət çəkirlərmi? Erməniyə dəstək verən bir insanın şəklini əllərində qaldırıb mitinqdə gəzdirirdilər. Budur onların xisləti. Bu filmdə Azərbaycan xalqı, türk xalqı təhqir olunur. İnsan hakimiyyətə qarşı müxalifətdə ola bilər, amma dövlətinə, millətinə qarşı müxalifətdə olmaq olmaz. Bu, dövlətə, dövlətçiliyə, millətə, Azərbaycan, türk etnosuna qarşı düşmənçilikdir. Bu, ermənilərin 100 ildən artıq apardığı düşmənçiliyin ən mərkəz nöqtəsidir ki, bu gün bu düşmənçilik adı azərbaycanlı qoyulan Rüstəm İbrahimbəyovun əli ilə aparılır”.

S. Novruzov qeyd edib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra indiyə qədər Azərbaycanın müstəqilliyi, Xalq Cümhuriyyəti, Dağlıq Qarabağ, azərbaycanlıların Ermənistandan qovulması, uşaqların, qadınların, yaşlıların vəhşiliklə qətlə yetirildiyi, başlarının dərilərinin soyulduğu, gözlərinin çıxarıldığı, ayaqlarının qırıldığı Xocalı soyqırımı ilə bağlı R. İbrahimbəyov hər hansı film, yazı ortaya qoymayıb: “Dünyanın bir çox ölkəsinin parlamenti Xocalı soyqırımını tanıyıb, Rüstəm İbrahimbəyovun gözü bunu görmür?! Bütün bunlar hansısa əsrdə baş verməyib, XX əsrin sonunda olan hadisədir, faktlar lentə alınıb. Bu adam bunu görmürsə, deməli, o adamda azərbaycanlı qanı, azərbaycanlı düşüncəsi yoxdur. Rüstəm İbrahimbəyov ermənilərin əhatəsində olub və filmdə göstərdiyi qorxaq azərbaycanlı da elə onun özüdür, yəqin ki, özünü düşünərək o obrazı yaradıb. Çünki istənilən anda azərbaycanlılar həmişə ermənilərdən üstün olublar. Biz sovet dövründə hərbi xidmətdə olmuş insanlarıq, ermənilər həmişə bizim himayəmizdə dolanıblar. Hərbi xidmətdə biz onları başqa millətlərin nümayəndələrindən qorumuşuq, döyülmələrinin qarşısını almışıq. Filmdə azərbaycanlını aşağılamaq, ermənini qəhrəman kimi təqdim etmək ancaq erməni qanı olan şəxsə xas olan əməldir. Mən çox təəssüf edirəm ki, Maqsud İbrahimbəyov kimi bir insan onun qardaşıdır. Mən inana bilmirəm ki, Maqsud İbrahimbəyov kimi bir insanın, böyük bir ziyalının, böyük bir azərbaycanlının bu cür ermənipərəst qardaşı olsun”.

# Dilarə Seyidzadə: Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının XX əsrin əvvəllərində azadlıq və müstəqillik uğrunda mübarizəsinin qanunauyğun yekunu kimi qəbul edilməlidir

***“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdiyimiz bir vaxtda Cümhuriyyətə doğru aparan yolların nəzərdən keçirilməsi çox vacibdir. Çünki xalqımız məhz həmin yolu keçərək öz müstəqil dövlətini qurmuşdu və bu böyük hadisə Azərbaycan xalqının XX əsrin əvvəllərində azadlıq və müstəqillik uğrunda ardıcıl və inamlı mübarizəsinin qanunauyğun yekunu kimi qəbul edilməlidir”. Bu fikirləri Azərbaycan Prezidenti Katibliyinin rəisi - Prezidentin köməkçisi, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə deyib.***



D.Seyidzadə bildirib ki, 1917-ci ilin fevralında Rusiyada çarizmin devrilməsindən sonra başqa xalqlar kimi, Azərbaycan xalqının da qarşısında sosial-iqtisadi, siyasi və milli inkişaf üçün geniş imkanlar açılmışdı. Dövlət Dumasının Azərbaycandan olan deputatları Rusiyada parlamentarizmin təşəkkülündə və inkişafında iştirak edərək, parlament fəaliyyəti sahəsində böyük təcrübə qazanmışdılar. Bu təcrübə onlara bütün səylərini birləşdirərək qısa müddətdə müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətini yaratmağa imkan verdi.

“Azərbaycan nümayəndələri Dövlət Dumasında dəfələrlə çıxış edərək əhaliyə bərabər hüquqlar verilməsini, seçkilərdə bütün əhalinin iştirak hüququnun tanınmasını tələb edirdilər. Onlar hələ 1907-ci ilin mayında II Dövlət Dumasında müsəlman fraksiyasının üzvləri ilə birlikdə təqdim etdikləri qanun layihəsində insanların siyasi və vətəndaşlıq hüquqlarında dini və milli mənsubiyyətlə bağlı məhdudiyyətin ləğvini tələb etmişdilər. Layihədə qadınların hüquq bərabərliyi haqqında da məsələ qaldırılmışdı. Bu, Azərbaycan qadınının hüquq bərabərliyi, onun seçki hüququnun təmin edilməsi istiqamətində ilk və inqilabi addım idi. Həmin dövrdə yaranmış siyasi partiyaların və təşkilatların vahid bir məqsədi var idi - bütün milli qüvvələri birləşdirmək, millətin mənafelərini müdafiə etmək, bərabərliyə, hüquq qaydasına və qanunçuluğa nail olmaq. Sosial cəhətdən kifayət qədər rəngarəng olan, öz sıralarında əhalinin, demək olar ki, bütün təbəqələrini birləşdirən bu təşkilatlar bütövlükdə Azərbaycan cəmiyyətinin maraqlarını ifadə etməyə çalışırdılar”-deyə, D.Seyidzadə vurğulayıb.

O qeyd edib ki, Ümummilli lider Heydər Əliyev Azərbaycanda ilk demokratik respublikanın qurulmasında yaxından iştirak edənlərin böyük xidmətlərini yüksək qiymətləndirib. “Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin keçirilməsi ilə bağlı Sərəncamında da xüsusi qeyd edilir ki, Xalq Cümhuriyyəti milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirib. Xalq Cümhuriyyəti XIX əsrin axırları - XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxıb”, - deyə, Dilarə Seyidzadə diqqətə çatdırıb.

# Milli Məclisdə “Azərbaycan ailə modeli: müasirlik və dəyərlər” mövzusunda tədbir keçirilib




***Mayın 23-də Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin təşkilatçılığı ilə “Azərbaycan ailə modeli: müasirlik və dəyərlər” mövzusunda tədbir keçirilib.AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı Azərbaycanda dövlət ailə siyasətinin əsas prinsiplərinin ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu deyib. Diqqətə çatdırıb ki, Ümummilli Lider hər zaman milli mənəvi dəyərlərin qorunmasının vacibliyini xüsusi qeyd edirdi.***

Bu gün ölkəmizdə ailə institutunun qorunması prioritet məsələlərdəndir. Tarixin hər bir mərhələsində ailə cəmiyyətin inkişafında mühüm rol oynayıb. Cəmiyyətin inkişafı ailənin rifahından, ailədaxili sağlam mənəvi mühitdən, ailə münasibətlərinin yüksək əxlaqi dəyərlər əsasında təşkilindən çox asılıdır. Buna görə də cəmiyyət həmişə ailənin möhkəm bünövrə əsasında qurulmasına, inkişafına çalışır. Cəmiyyətin və dövlətin tərəqqisində xüsusi rolu olan ailə öz bütövlüyünü qoruyub saxlayır. Azərbaycan ailəsi dünyada özünəməxsusluğu ilə seçilir. Bizim qədimdən gələn ailə modelimiz var.

Aqiyə Naxçıvanlı vurğulayıb ki, mütəmadi aparılan maarifləndirmə işlərinə baxmayaraq, hələ də cəmiyyətdə erkən nikahlar problem olaraq qalır. Erkən nikahlarda məişət zorakılığından tutmuş doğuş zamanı ana və uşaq ölümlərinə, boşanmalara, fiziki və psixoloji çətinliklərə rast gəlinir. Eyni zamanda, təhsildən yayınma halları da baş verir.

Parlamentin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov tədbirin mövzusunun bu gün cəmiyyətimiz üçün çox aktual və maraqlı olduğunu söyləyib. O, boşanma hallarının yaratdığı problemlərdən danışıb. Bildirib ki, bir valideynlə yaşayan uşaqların həm fiziki, həm də psixi sağlamlığında olan problemlər hər iki valideyni ilə yaşayanlara nisbətən daha çoxdur. Bu, həm somatik, həm yoluxucu xəstəliklərə, xüsusilə psixi pozulmalara aiddir. Bunun əsas səbəbi onunla bağlıdır ki, bir valideynlə yaşayan uşaqlar kifayət qədər diqqət görmür. Valideyn çalışır və uşaqların sağlamlığı diqqətdən kənarda qalır. Bir sözlə, ailələrin dağılması, boşanmalar, ilk növbədə, uşaqların sağlamlığına təsir edir. Uşaqların sağlamlığına təsir edən digər fakt isə ailələrin sosial-iqtisadi vəziyyətidir. Bir ailədə bir valideyn olanda şübhəsiz ki, onun maliyyə vəziyyəti də çətin olur.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova deyib ki, ölkəmizdə ailəyə xüsusi diqqət göstərilir və bu sahədə dövlət siyasəti həyata keçirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həm hüquqi bazanın mükəmməlləşməsində, həm ailə institutunun inkişaf etdirilməsində öz səylərini göstərir, bununla bağlı tədbirlər görür. Komitənin regionlarda 11 mərkəzi var və bunlar Azərbaycan ailəsinə dəstək kimi böyük əhəmiyyət kəsb edir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə ən çox alimentlərlə bağlı müraciətlər daxil olduğunu deyən S.Qəhrəmanova bildirib ki, cüzi miqdarda olan alimentin verilməsi probleme çevrilir. Eyni zamanda, məişət zorakılığı ilə bağlı da müraciətlər daxil olur. “Boşanan ailələrin təməli düzgün qoyulmur. Boşanmaların sayı artırsa, bu, problemdir. Dövlət Komitəsi bununla bağlı maarifləndirmə tədbirləri keçirir. Azərbaycanda qeyri-rəsmi nikahlardan hər il iki minə yaxın uşaq doğulur. Düzdür, 10 il bundan öncə bu rəqəm daha böyük idi. Erkən nikahla bağlı qanunvericilikdə müəyyən dəyişikliklər edilməlidir”, - deyə komitə sədrinin müavini bildirib.

Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli ailələrin dağılmasının əsas səbəblərindən biri kimi sosial şəbəkələri göstərib. O, Azərbaycanda çoxuşaqlı ailə məfhumunun 5-dən 3-ə endirilməsini təklif edib. Azərbaycanda nikaha girənlərə nikahın rəsmiləşdirilməsindən əvvəl bir ay vaxt verildiyini deyən H.Rəcəbli həmin müddətdə gənclər üçün xüsusi kurslar təşkil edilməsinin vacibliyini vurğulayıb.

Komitə sədri bildirib ki, ulu öndər Heydər Əliyev ailə, qadın və uşaq məsələlərini daim diqqətdə saxlayıb. Bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da bu sahəyə xüsusi diqqət və qayğı göstərir.

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ailələrin dağılmasının əsas səbəblərindən biri kimi valideynlərin ailəyə müdaxiləsini göstərib. “Valideyn istəyir övladı ailə qursun, amma bilmir övladı buna hazırdır, ya yox”, - deyən S.Novruzov

diqqətə çatdırıb ki, ailə milli mənəvi dəyərlərin təcəssümü, daşıyıcısıdır.

Komitə sədri nikah müqavilələrinin bağlanmasının vacibliyini qeyd edib. Bildirib ki, bu gün müvafiq qurumlara boşanmalarla bağlı müraciətlərin əsas səbəbləri mülkiyyət münasibətləri, alimentin verilməməsi, uşağın valideynə göstərilməməsi kimi məsələlərdir. Bunların aradan qaldırılması üçün ilkin olaraq nikah müqaviləsi bağlanmalıdır.

Bakı Dövlət Universitetinin sosial və pedaqoji psixologiya kafedrasının müdiri professor Kamilə Əliyeva deyib ki, cəmiyyətin sosial-iqtisadi inkişafının sürətlənməsi fonunda insanların psixoloji vəziyyəti ilə bağlı bir sıra problemlər özünü göstərir. Bununla yanaşı, ölkəmizin 25 ildən artıqdır ki, məcburi müharibəyə cəlb edilməsi, zaman-zaman yüksələn qlobal ziddiyyətlər, eləcə də böyük dövlətlərin apardığı və kiçik dövlətlərin cəlb olunduğu lokal müharibələr gündəlik həyatımızda neqativ halların yaranmasına səbəb olur, stress hallarını artırır. Nəzərə almaq lazımdır ki, belə vəziyyətlərin və neqativ proseslərin təsiri altında psixologiya şəraitə uyğunlaşa bilmir. İnsanlar aqressiv davranışa meyil edirlər. Bu isə qurulan ailələrin dağılmasına, məişət zorakılığı, intihar kimi sosial problemlərin yaranmasına səbəb olur. Müasir dövrdə tez-tez rastlaşdığımız sosial bəlalar arasında həlli vacib olan problemlərdən biri intiharlarla bağlıdır. Demək olar ki, tez-tez müxtəlif yaşlı insanlar hansısa səbəblərdən intihar və ya buna cəhd edir.

Tədbirdə mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.



## Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr edilmiş estafet yarışları keçirilib





***Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin, Gənclər və İdman Nazirliyinin Xəzər rayon idarəsinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr edilmiş estafet yarışları keçirilib. Tədbirin əvvəlində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılma tarixi haqqında ətraflı məlumat verilmiş və bu əlamətdar hadisənin təkcə Azərbaycan üçün deyil, bütün müsəlman dünyası üçün mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.***

Xalq Cümhuriyyətinin varisi olan müasir və müstəqil Azərbaycan dövlətinin yaranmasında, möhkəmlənməsində və dünyada tanınmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri də minnətdarlıq hissi ilə qeyd edilib.

Ümummilli Lider Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması, xüsusi olaraq, vurğulanıb.

Əsas məqsədi ölkə Prezidentinə, dövlətinə, xalqına sadiq, yüksək səviyyədə təlim və təhsil almış, fiziki və mənəvi cəhətdən sağlam, vətənpərvər Azərbaycan övladlarının yetişdirilməsi olan Xüsusi Məktəbin fəaliyyətə başlaması, formalaşması və onun zəruri tədris bazası ilə təchiz olunmasında Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ali diqqət və qayğısı minnətdarlıqla qeyd olunub.

Rəsmi hissə başa çatdıqdan sonra müxtəlif estafet yarışları keçirilib, milli rəqslər, teatr tamaşalarından səhnəciklər nümayiş etdirilib və vətənpərvərlik ruhunda mahnılar ifa edilib. Sonda estafet yarışının qalibləri mükafatlandırılıb.

**ZÜMRÜD**

# Elmi-ictimai fəaliyyəti ilə əbədilik qazanan böyük ziyalı

*Dövlət başçısının Sərəncamı ilə akademik Cəlal Əliyevin 90 illiyi qeyd olunacaq*

Fundamental araşdırmaları və elmi nailiyyətləri ilə Azərbaycan elminə sanballı töhfələr vermiş akademik Cəlal Əliyevin Azərbaycan elminin dünyada tanınmasında, təbliğində və beynəlxalq elmi təşkilatlarla əlaqələr qurulmasında misilsiz xidmətləri olub. Azərbaycanın görkəmli alimi, tanınmış ictimai xadim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Cəlal Əliyev elm fədaisi olaraq, zəngin bir irs yaratmışdır. Onun şərəfli ömür yolu Azərbaycan elminin inkişafına və yüksəlişinə həsr olunub. Cəlal Əliyevin çətin, lakin şərəfli və mənalı ömür yolu, zəngin elmi fəaliyyəti əsl həyat məktəbi, elmi ideallara xidmətin parlaq nümunəsidir. Yüksək intellektə və dərin biliyə malik bir alim olan Cəlal Əliyev öz fəaliyyəti ilə hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. Geniş diapazonlu elmi fəaliyyəti və zəngin irsi ilə akademik Cəlal Əliyev Azərbaycan və dünya elmi qarşısında müstəsna və təmənnasız xidmətlərinə görə, hələ sağlığında ikən özünə əbədi abidə ucaldıb. Belə bir elmi nailiyyətlərə malik olan akademikin zəngin elmi irsi öyrənilir, qorunub-saxlanılır və gələcək nəsillərə ötürülür. Alimin, nəzəriyyə və təcrübənin vəhdətini daim əsas götürməklə, qazandığı nəticələrin tətbiqi respublika iqtisadiyyatının inkişafı və məhsuldarlığın yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb etmişdir. Azərbaycanda biologiya elminin inkişafında, müasir kadr potensialının formalaşdırılmasında və ümumən elmin təşkilində uzunmüddətli ardıcıl



fəaliyyətini nəzərə alaraq, akademik Cəlal Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə akademik Cəlal Əliyevin 90 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayacaq.

Ölkədə bioloji müxtəlifliyin mühafizəsi və səmərəli istifadəsi strategiyasının işlənib-hazırlanmasında mühüm xidməti olan Cəlal Əliyevin keçdiyi həyat yolu, elmi fəaliyyəti bir nümunədir. Cəlal Əliyev öz elmi fəaliyyətini kənd təsərrüfatı bitkilərinin, əsas ərzaq bitkisi kimi buğdanın forosintetik məhsuldarlığının nəzəri əsaslarının öyrənilməsinə həsr edib. Azərbaycan elmi tarixində ilk dəfə Yer üzərində həyatın əsasını təşkil edən fotosintez prosesinin əsaslı şəkildə öyrənilməsinə ciddi maraq göstərib və bu sahə Onun elmi yaradıcılığının fundamental tədqiqat obyektinə çevrilib. Akademik Cəlal Əliyev fitri istedadı, uzun illərə söykənən zəngin təcrübəsi, orijinal və bənzərsiz elmi yaradıcılığı sayəsində Azərbaycanda kənd təsərrüfatı bitkilərinə və onların yabanı əcdadlarına aid 40 minə yaxın nümunədən ibarət buğda genofondunu formalaşdırıb və onun əsasında 60-dan çox yeni və müasir tələblərə cavab verə bilən buğda sortu yaratmağa nail olub ki, bu da tək-tək elm adamının taleyinə düşən böyük vergi kimi qiymətləndirilir. Qeyd edək ki, 1928-ci il iyunun 30-da Naxçıvan şəhərində anadan olan Cəlal Əliyev Naxçıvan Dövlət Müəllimlər İnstitutunun təbiət-coğrafiya fakültəsini və Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir. 1948-ci ildən Azərbaycan Dövlət Universitetinin bitki fiziologiyası kafedrasında laborant işləmişdir. 1954-cü ildən Azərbaycan EA-nın Elmi-Tədqiqat Əkinçilik İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1971-1990-cı illərdə Azərbaycan EA-nın Botanika İnstitutunda fotosintezin fiziologiyası yaradıcı qrupunun rəhbəri, laboratoriya müdiri, şöbə müdiri, Azərbaycan EA-nın Biologiya elmləri bölməsinin akademik-katibi olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının həqiqi üzvü, Ukrayna Aqrar Elmlər Akademiyasının və Belarus Kənd Təsərrüfatı Elmləri Akademiyasının xarici üzvüdür. Onlarla monoqrafiyanın, kitabın və elmi məqalənin müəllifi idi. Yetirmələri dünyanın müxtəlif tədqiqat mərkəzləri və tədris ocaqlarında bu gün də uğurla çalışan alimin mötəbər beynəlxalq elmi təşkilatlarla əlaqələrin qurulması və Azərbaycan elminin nailiyyətlərinin tanıdılması üçün təqdirəlayiq işlər görmüşdür.

Cəlal Əliyevin çoxşaxəli fəaliyyətinin müxtəlif istiqamətlərində qazandığı uğurların əsas səbəbi Onun nadir istedadı və yüksək dərəcədə əməksevərliyi olub.

Elmi fəaliyyəti ilə yanaşı, ictimai-siyasi fəaliyyəti də təqdirəlayiqdir. Belə ki, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. O, 1995-2015-ci illərdə Milli Məclisin üzvü olub və bir çox dövlət əhəmiyyətli qanun layihələrinin müzakirəsində, qəbul olunmasında və təkmilləşdirilməsində fəal iştirak edib.

"Qırmızı Əmək Bayrağı" ordeni, "İstiqlal" ordeni, "Şərəf" ordeni, Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif olunub. Kənd təsərrüfatı sahəsində fundamental tədqiqatları və nailiyyətlərinə görə akademik Cəlal Əliyev Həsən bəy Zərdabi adına mükafatla da təltif olunub.

Böyük alim, görkəmli ictimai-siyasi xadim, akademik Cəlal Əliyev elmi məktəb yaradan ziyalı kimi əbədiləşib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yasamalda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş tədbir keçirildi

Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş tədbir keçirildi.

Tədbir iştirakçıları, ilk olaraq, rayon təşkilatının qərargahının foyesindəki Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət edərək, önünə gül dəstələri düzüblər. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlandı.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov bu il müsəlman Şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünün tamam olduğunu və bu münasibətlə ölkəmizin hər yerində tədbirlərin keçirildiyini bildirdi: "Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı imzaladığı sərəncamları dövlətçilik tariximizə olan böyük ehtiramdır. 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik, parlamentli respublika Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Azərbaycan dövlətçilik ənənələrinin və milli dövlətçilik şüurunun qorunmasında mühüm rolu olan Azərbaycan Xalq Cümhuriyyəti 23 ay mövcud olsa da, qısa müddətdə tarixi bir missiyanı yerinə yetirərək, genişmiqyaslı demokratik islahatlar həyata keçirib".

Rayon təşkilatının sədri AXC-nin təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam nail ola bilmədiyini, lakin insanların şüurlarında müstəqillik ideyasını gücləndirdiyini diqqətə çatdırdı: "AXC-nin hüquqi varisi olan müstəqil respublikamız Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq, sürətlə inkişaf edir və dünya birliyində layiqli yer tutur. Ümummilli Lider Heydər Əliyev respublikada hakimiyyətə qayıdışından sonra xalqımız tarixi-mədəni yaddaşını özünə qaytardı".



Tədbirdə çıxış edən millət vəkili Elman Nəsirov AXC-nin müstəqil Azərbaycan Respublikasının siyasi və hüquqi varisi olduğunu bildirərək, çətin tarixi şəraitdə müstəqillik qazandığını bildirdi. Qısa müddətdə ölkənin parlamentinin, hökumətinin formalaşdığını, bayrağı, himni və gerbinin yaradıldığını, ana dilinin dövlət dili elan olunduğunu qeyd edərək, AXC-nin xalq hakimiyyəti və insanların bərabərliyi prinsipinin əsas götürdüyünü, bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək milli, dini, sinfi bərabərsizliyin aradan qaldırdığını, müsəlman Şərqində ilk dəfə qadınlara səsvermə hüququ verdiyini söylədi.



Tədbirdə Yasamal rayon icra hakimiyyəti başçısının müavini Elçin Rzayev, YAP Yasamal rayon təşkilatının sədr müavini İbad Abbasov, AMEA-nın Dilçilik İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü Möhsün Nağısoylu çıxış edərək, müasir Azərbaycan Respublikasının AXC-nin hüquqi, siyasi varisi olduğunu və onun demokratik ənənələrini yaşatdığını diqqətə çatdırdılar. Qeyd olundu ki, AXC yarandığı gündən xarici və daxili qüvvələr tərəfindən müxtəlif təzyiqlərə məruz qalıb. Lakin bütün bu çətinliklərə baxmayaraq, Cümhuriyyət dövründə milli ordumuzun yaradılması, atributlarımız, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi istiqamətində böyük işlər görülüb. Cümhuriyyətin süqut etməsinə baxmayaraq, ötən əsrin sonlarında Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən müasir müstəqil Azərbaycan dövləti qurulub, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan qüdrətli dövlətə çevrilib. Çıxış edənlər AXC dövrünün daha dərindən öyrənilərək, gələcək nəsillərə çatdırılmasının zəruriliyini qeyd etdilər.

Qeyd edək ki, tədbirdə, həmçinin, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, AMEA-nın aqrar məsələlər üzrə müşaviri, akademik Qərib Məmmədov və başqaları iştirak edirdilər. Sonra bir qrup partiya fəallarına rayon təşkilatı tərəfindən Fəxri Fərmanlar verildi. Tədbir ədəbi-bədii hissə ilə davam etdirildi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rüstəm İbrahimbəyovun damarında erməni qanı axır



"Peşəsindən, cəmiyyətdəki sosial statusundan asılı olmayaraq, ümummilli məsələlərdə hər kəs vətəndaşlıq mövqeyi nümayiş etdirməli, dövlətçilik və milli maraqları hər şeydən uca tutmalıdır. Xalqımız hər zaman bu kimi məsələlərdə vahid mövqedən çıxış etməyi bacarıb. Təəssüf ki, "sapı özümüzdən olan" bəzi "baltalar" hələ də çirkin niyyətlərindən əl çəkmək fikrində deyillər. Daim Vətənə, xalqa qarşı təbliğat aparan bu cür ünsürlər erməni maraqlarına xidmət edirlər." Bu fikirləri KİV-ə açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, ssenari müəllifi Rüstəm İbrahimbəyov olan 2015-ci ildə çəkilmiş "Qafqaz üçlüyü" filmində Azərbaycan xalqının vəhşi, qəddar, mədəniyyətsiz, milli kökləri olmayan obrazda, ermənilərin isə sülhsevər kimi təqdim olunması İbrahimbəyov kimi anti-milli ünsürlərin hansı qaranlıq mənbələrdən "qidalandığı"nı açıq şəkildə nümayiş etdirir: "Filmə diqqət yetirdikdə, burada tarixi faktların, mövcud reallıqların, baş verən hadisələrin təhrif olunduğunu, qərəzli və yalan məlumatların yer aldığını görürük. Rüstəm İbrahimbəyova sual vermək lazımdır: Dağlıq Qarabağda baş verən hadisələr, torpaqlarımızın 20 faizinin ermənilər tərəfindən işğal olunması nə tez yadından çıxıb? Bəs Xocalı soyqırımı, qətlə yetirilən 613 Xocalı sakininin ruhu qarşısında necə cavab verəcəksən? Bütün bunları inkar etmək üçün, ən azı, erməni olmaq lazımdır. Görünür, İbrahimbəyovun damarında erməni qanı axır. O öz əməlləri ilə bu faktı bir daha təsdiq edir."

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, filmin əvvəlində azərbaycanlı uşaqların qorxaq, erməni uşaqların isə mərd, güclü, geniş ürəkli obraz kimi təqdim olunması İbrahimbəyovun ermənilərin əlində alət olduğunu, onların çirkin maraqlarına xidmət etdiyini nümayiş etdirir: "İbrahimbəyov kimi milli xəyanətkarların iç üzü, əsl "niyyətləri" hər kəsə məlumdur. Bu kimi ünsürlər hər zaman pul, şöhrət üçün milli maraqları satmağa hazırdırlar. Bir vaxtlar Əkrəm Əylisli "Daş yuxular" əsəri ilə xalqımıza xəyanət etdiyi kimi, Rüstəm İbrahimbəyov da "Qafqaz üçlüyü" filmi ilə öz xislətini ortaya qoydu. Bəlkə də erməni "qardaşları" buna görə onun boynundan medal da asacaqlar. Ancaq Azərbaycan xalqı bu cür namərdləri bir daha qəbul etməyəcək. Məncə, insan üçün ən böyük əzab, dərd öz Vətənindən və torpağından qovulmaqdır. Əminəm ki, milli mənsubiyyəti olmayan, kökü bilinməyən İbrahimbəyov insani hisslərini itirdiyinə görə, bu, onun üçün bir o qədər də önəm daşımır."

Vüqar Rəhimzadə əlavə edib ki, İbrahimbəyovun bu əməli bir daha "Milli Şura" adlı qurumun az fəaliyyətini anti-milli ideyalar əsasında qurduğunu göstərir: "Bir vaxtlar Əli Kərimli, Cəmil Həsənli kimilər "Milli Şura"da birləşərək, Rüstəm İbrahimbəyovu cəmiyyətə "ziyalı" kimi təqdim etməyə çalışırdılar. İndi bu şəxslər Rüstəm İbrahimbəyovun bu "əməllərinə" necə bəraət qazandıracaqlar? Təbii ki, bu, mümkün deyil. Çünki elə "Milli Şura" və bu cür ünsürlər də ermənipərəst dairələrə xidmət edirlər. Bu cür faktlar onların əsl simasını bir daha xalqa nümayiş etdirir."

"İki sahil" qəzetinin baş redaktoru onu da bildirib ki, İbrahimbəyov "Qafqaz üçlüyü" filmi ilə özünü "humanist" kimi tanıtmağa çalışır. Ancaq bu film bir daha İbrahimbəyovun Azərbaycanın və xalqımızın düşməni olduğunu təsdiqləyir.

# Bəhruz Quliyev: "İbrahimbəyovun xəyanətkar əməli cəmiyyətdə hiddətlə qarşılanır"

"Məlum olduğu kimi Rüstəm İbrahimbəyovun ssenari müəllifi olduğu "Qafqaz üçlüyü" filmində azərbaycanlılar təhqir olunub, vəhşi kimi təqdim edilib, ermənilər isə əksinə mədəni, humanist millət kimi göstərilib. Nə vaxtsa Azərbaycanda yaşayan, özünü azərbaycanlı kimi təqdim edən bir şəxsin bu cür təfəkkürü başa düşülən deyil". Bu fikirləri siyasi ekspert, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev deyib.

Nankor kinorejissorun dəfələrlə ermənipərəst mövqe sərgilədiyini deyən ekspert bildirib ki, sözügedən filmin maliyyə mənbəyini araşdırdıqda onun mənfur düşmənlərimizlə əlaqələri olması istisna edilmir. B.Quliyevin sözlərinə görə, lakin ən pisi vaxtilə R.İbrahimbəyovun Azərbaycanda prezidentliyə namizəd kimi təqdim edilməsidir: "Görəsən, "milli şura" adlı qurumun başında duranlar hansı keyfiyyətlərinə görə bu şəxsi yüksək kürsüyə qaldırmaq istəyirdilər? Onun xaricdəki ermənipərəst qüvvələr tərəfindən dəstəklənməsi azmış kimi, daxildəki Əli Kərimli, Cəmil Həsənli kimilər düşmən xislətli birisini xalqa "millətin düşünən əsl ziyalı" kimi təqdim etməyə çalışır, onu dəstəkləyirdilər. Görəsən, bundan sonra onlar atdıqları bu addımlara nə ad qoyacaqlar?".



Baş verənlərin Əli Kərimli, Cəmil Həsənli və digərlərinin anti-milli, ermənipərəst olduğunu açıq şəkildə göstərmiş olduğunu deyən siyasi ekspert söyləyib ki, bu xəyanətkar əməl Azərbaycan cəmiyyətində də hiddətlə qarşılanıb.

# "Rüstəm İbrahimbəyovun mənəviyyatı da günahsız insanların qanına bulaşıb"

***"Rüstəm İbrahimbəyovun bu günədək ermənilərin ünvanına səsləndirdiyi sevgi dolu fikirlər, Rusiya və ABŞ mətbuatına verdiyi müsahibələrdə Azərbaycan torpaqlarının işğalında ermənilərin deyil, hansısa mücərrəd geosiyasi proseslərin günahkar olduğunu dilə gətirməsi təəccüblənmək üçün əsas qoymur".***



Bunu SİA-ya açıqlamasında politoloq Elçin Mirzəbəyli deyib.Politoloq bildirib ki, İbrahimbəyovun filmi Əkrəm Əylislinin "Daş yuxular" romanının məntiqi davamıdır: "Bu adamlar erməni lobbisi və diasporunun dəstəyi ilə ədəbiyyat və kinomatoqrafiya sahəsində yüksək beynəlxalq mükafatlara sahiblənmək istəyirlər. Rüstəm İbrahimbəyov 2013-cü ildə "Rosbalt" agentliyinə verdiyi müsahibədə ermənilərin Azərbaycan xalqının düşməni olmadığını, onların da azərbaycanlılar kimi facie qurbanları olduğunu deyir. İbrahimbəyov bildirir ki, "Dağlıq Qarabağ təkcə torpaq deyil, həm də əsasən ermənilərdən ibarət olan əhalidir". Bu adamın yanaşması ortalıqdadır və bu yanaşma ermeniliyə xidmət edir. Rüstəm İbrahimbəyov, Əkrəm Əylisli və bu qəbildən olan digər adamlar Dağlıq Qarabağı Azərbaycandan qoparmağa çalışan qüvvələrin uzun illərdir ki, yemləndiyi, formalaşdırdığı "ictimai diplomatlar"dır və çox təhlükəli bir missiyanı həyata keçirirlər. "Daş yuxular", "Qafqaz triosu" kimi "ssenarilərin" məqsədi azərbaycanlıların vəhşi obrazını formalaşdırmaqdan, erməni separatizminə və işğalına haqq qazandırmaqdan ibarətdir. Bildiyiniz kimi, Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonlarımızın işğalını və Dağlıq Qarabağın "müstəqilliyi" ilə bağlı iddialarını ermənilərin azərbaycanlılarla birgə yaşayışının mümkün olmaması ilə əlaqələndirirlər. Bu, onların Azərbaycana qarşı istifadə etdikləri əsas iddiadır. "Xocalıya ədalət" kampaniyası çərçivəsində görülən işlər, Xocalı soyqırımının tanıdılması istiqamətində atılan addımlar isə bunun əksini sübuta yetirir. Təsdiq edir ki, ermənilər azərbaycanlıları etnik təmizləməyə məruz qoyublar, soyqırım törədiblər".

E.Mirzəbəyli qeyd edib ki, dünyaya təqdim etdiyimiz həqiqətlərin qarşılığında onların ortaya qoyacaqları heç bir fakt, sübut yoxdur: "Bu səbəbdən də sapı özümüzdən olan baltaların bədii təxəyyüllərini işə salaraq öz yalanlarına bədii-emosional don geyindirməyə cəhd göstərirlər. Bu prosedə iştirak edən istənilən şəxsin, o cümlədən Rüstəm İbrahimbəyovun Dağlıq Qarabağın Azərbaycandan qopardılmasına xidmət ediyini sübuta yetirməyə ehtiyac yoxdur. Hər şey onsuz da göz qabağındadır. Nəzərə alsaq ki, Dağlıq Qarabağın və ətraf rayonların işğalı prosesi ermənilərin şüurlarına yeridilmiş faşist ideologiyasından - Böyük Ermənistan xülyasından qaynaqlanır. Bu ideyanın daşıyıcıları nəinki azərbaycanlıları, bütövlükdə bütün türkləri, müsəlmanları, bölgə xalqlarını yer üzündən silmək istəyirlər, o zaman İbrahimbəyovun bu qanlı niyyətin həyata keçirilməsində iştirak edən ASSALa terrorçularından, hərbi cinayətkarlardan, soyqırım təşkilatçıları və icraçılarından fərqi olmadığına görə bilərik. Əgər Qarabağda qarşı soyqırım həyata keçirilən erməni hərbi cinayətkarlarının əli Azərbaycan xalqının qanına bulaşıbsa, onlarla mahiyyət etibarı ilə eyni missiyanı həyata keçirən Rüstəm İbrahimbəyovun mənəviyyatı da günahsız insanların qanına bulaşıb. Bu qanı təmizləmək və İbrahimbəyov kimilərin alnındakı xəyanət damğasını silmək heç zaman mümkün olmayacaq".

# Sədaqət Vəliyeva: Rüstəm İbrahimbəyovun əməlləri onun Azərbaycan xalqına nifrətinin göstəricisidir



2015-ci ildə çəkilmiş "Qafqaz üçlüyü" filmi Rüstəm İbrahimbəyovun tarixi saxtalaşdırmaq, Azərbaycan xalqı haqqında dünya ictimaiyyətində yalnış fikir formalaşdırmaq cəhdidir. Dəfələrlə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə qarşı "yaradıcılıq" adı altında hücumlar etmiş Rüstəm İbrahimbəyovun əməlləri Azərbaycan xalqına nifrətinin göstəricisidir. Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

S.Vəliyeva bildirib ki, Azərbaycan xalqı daim vətənpərvər, sülhsevər və mehriban xalq kimi tanınıb. Lakin ermənilər Cənubi Qafqaza köçürüləndən bu günə qədər türklərə, müsəlmanlara, azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı siyasəti həyata keçirib, torpaqlarımıza iddia edib, hətta, ərazilərimizi işğal ediblər. "Hərçənd, Rüstəm İbrahimbəyov bilməmiş olmaz ki, Azərbaycanın tarixi torpaqlarında özünə yer etmiş ermənilər XX əsr boyunca 2 milyondan çox azərbaycanlını soyqırımına, 1 milyondan çox soydaşımızı deportasiyaya məruz qoyub, tarixi yaşayış məskənlərindən didərgin salıb. Məgər, Rüstəm İbrahimbəyov bu filmi çəkərkən ermənilərin Ağdabanda, Xocalıda törətdiyi soyqırımıları da bilmirdimi? Yaxud, Bakıda, Sumqayıtda, Qubada, Şamaxıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Qarabağda demək olar ki, Azərbaycanın bütün bölgələrində ermənilərin qanlı əlinin izlərinin olması haqqında bilgisi yoxdurmu? Əlbəttə ki, var. Sadəcə olaraq görünür erməni lobbisinin maliyyəsi, hədiyyələri Rüstəm İbrahimbəyov üçün milli-mənəvi dəyərlərdən, tarixi-milli mentalitetimizdən daha vacibdir, üstündür",-deyə Milli Məclisin deputatı vurğulayıb.

"Filmdə rejissorun azərbaycanlıları qəddar, erməniləri isə məzlum göstərmək cəhdi çox incə bir məqamdan xəbər verir", - deyən Sədaqət Vəliyeva əlavə edib ki, Rüstəm İbrahimbəyovun bu filmi illərdir ermənilərin dünyada özləri haqqında məzlum obrazı yaratmaq siyasətinə bir dəstəkdir. Özünü azərbaycanlı kimi təqdim edən, əslində isə erməniləmiş Rüstəm İbrahimbəyov bu filmi ilə erməni lobbisinə, dünya ermeniliyinə hədiyyə vermiş olub. Əkrəm Naibov kimi Rüstəm İbrahimbəyov da Azərbaycan xalqına, Azərbaycan dövlətinə xəyanət edib. Bu məqamda 2013-cü ildə Rüstəm İbrahimbəyovu prezidentliyə namizəd kimi görən Milli Şuradakılar, xüsusilə də, Cəmil Həsənli, Əli Kərimli kimi anti-milli ünsürlərin də erməni lobbisinin maraqlarına xidmət etdikləri sübut olunur. Bu cür reallıqların ortada olduğu bir zamanda bu anti-milli ünsürlər hansı üzlə insanların qarşısına çıxıb millilikdən, vətənpərvərlikdən danışa bilirlər? Düşünürəm ki, Rüstəm İbrahimbəyovun, Əli Kərimlinin, Cəmil Həsənlinin və digər anti-milli ünsürlərin cavabı ən azından Əkrəm Naibovun xəyanətinə verilən cavab qədər olmalıdır.

# Azərbaycanlıların təqsiri nədir və ya Rüstəm İbrahimbəyovun ikrahdoğuran filmi haqqında

***"Bakinski raboçi" qəzetinin 23 may tarixli nömrəsində tanınmış kinorejissor Ayaz Salayevin "Rüstəm İbrahimbəyov və onun ermənilərin müsibətlərinə görə azərbaycanlıların təqsirkar olması haqqında filmi" sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC məqaləni təqdim edir.***



x x x

Azərbaycan haqqında yazanlar çox vaxt bizim səriştəsizliyimizə və ya qətiyyətsizliyimizə ümid edirlər. Beləleri düşünürlər: ya heç nə başa düşməyəcəklər, ya da cavab verməyəcəklər...

"Qafqaz üçlüyü" filminin (2015, rejissorlar - Eldar Şengelaya, Fuad İbrahimbəyov, ssenari müəllifi Rüstəm İbrahimbəyov) yaradılmasından iki il sonra mən bu filmi təsadüfən gördüm, başa düşdüm və cavab verirəm.

Filmin proloqunda uşaqlar qayadan suya tullanırlar. Onlardan biri - ən qoçağı qorxaq dostunu ürəkləndirir. Az sonra məlum olur ki, bu qorxaq azərbaycanlı, qoçaq, həm də filmin baş qəhrəmanı isə Bakı ermənisidir. O böyüyəcək, yüksək ixtisaslı, nəcib və gözütox həkim-oftalmoloq olacaq. O, öz həkimlik məharətini Moskvada nümayiş etdirir, onun oğlu, istedadlı aktyor isə Bakıda, ögey atanın ailəsində Azərbaycan soyadı altında yaşamaqda davam edir. O da Moskvaya köçüb getməyə hazırlaşır, bir tamaşada iştirak edir, bu tamaşa onun aktyor taleyini həll etməlidir. Nəcib həkimin miras alması üçün hansı səbəbdənsə çox vacibdir ki, onun bioloji oğlu təcili surətdə özünün əsl erməni soyadını qaytarsın. Ən dəhşətli hadisələr bundan sonra başlanır.

Azərbaycanlı qəddar kənd uşaqları haradansa bu zavallı aktyorun etnik mənşəyi barədə öyrənərək onu itələyib quyuya salır və daşa basırlar - ekranda erməni ziyalıların qaniçən vəhşi türklərin əlindən çəkdiyi əbədi əziyyətlərin obrazı canlanır.

Oğlunun itməsindən xəbər tutan ata qəhrəmancasına sərhədi keçir və uşaqlıqda dostluq etdiyi aciz oğlanın yanına qonaq gəlir. Düzdür, artıq həmin oğlan böyük kişidir, Azərbaycanda neft ehtiyatlarının tükənməsi barədə uzaqgörənlik etdiyinə görə vəzifədən qovulub. Qəzəblənmiş azərbaycanlılar dərhal həmin nəcib erməninin gizləndiyi evin ətrafında toplaşır. Burada televiziya müxbiri də var - aydındır ki, o, erməni talanlarına həvəskar olan bakılıların quracağı linç məhkəməsini çəkmək üçün gəlib...

...Hər halda yaşlı bədbəxt həkimi döyə bilirlər. Sonda bunu sərhəd xidmətinin məmuru aeroportda edir. O, həkimi döyməkdən ləzzət alır, aşkar görünür ki, bu, onun çoxdankı arzusu imiş.

Bircə bunu əlavə etmək qalır ki, haqqında danışdığımız filmə erməni kinematoqrafçılarının heç bir aidiyyəti yoxdur. Bu "dostluq" filminin rejissoru gürcü kinosunun az qala klassiki sayılan və vaxtilə Bakıda 26 Komissar haqqında filmlə yadda qalmış klassik Nikolay Şengelayanın oğlu Eldar Şengelayadır. Bu rejissor Abxaziya mövzusunda heç vaxt buna oxşar film çəkməzdi. Amma onun özünə haqq qazandırması üçün bəhanəsi var - filmin ssenari müəllifi azərbaycanlı, məşhur yazıçı, dramaturq və ssenarist Rüstəm İbrahimbəyovdur.

Yeri gəlmişkən, filmdə döyülmüş aktyor məhz İbrahimbəyovun pyesi əsasında hazırlanan tamaşada oynamalıdır. Üstəlik, ssenari müəllifi Rüstəm İbrahimbəyov özü qəhrəmanlarından birinin dili ilə filmdə öz pyesini tərifləyir (yadımdadır, bir dəfə o, Bakıda keçirilən kinofestivalda özü-özünə mükafat təqdim etmişdi).

Yazıçı İbrahimbəyovun mənsub olduğu xalq iyirmi beş ildir ki, işğal altındakı əzəli torpaqlarının qaytarılması arzusu ilə yaşayır. O, öldürülmüş, qanlı əllərini və ayaqlarını uzatmış azərbaycanlı uşaqların fotoşəkillərini görməyə bilməzdi. Bu gün yazıçı Rüstəm İbrahimbəyovu sənətkar kimi narahat edən bir problem var - erməninin Bakıda rahat və təhlükəsiz yaşaması. Özü də filmdən göründüyü kimi, bu insan azərbaycanlıları o qədər də sevmir.

O, çılğın vəziyyətdə imzaladığı "antierməni məqaləni" lənətləyir. O, Bakıda özünü çox həyasızcasına aparır, çünki onun fikrincə, azərbaycanlılar aqressiv olsalar da qorxaqdırlar. Onlar hətta əllərinə düşmüş gürcünün də üstünə dəstə ilə hücum çəkir, digərləri döyülən qocanın yanından saymazyana ötüb keçirlər (yeri gəlmişkən, filmin finalında məlum olur ki, həmin gürcü döyülməkdən ölüb).

Filmdə hətta bir-birinə yaxın insanların münasibətləri də ən adi mənəviyyatdan və insaniyyətdən uzaqdır. Gənc aktyor bircə anda onu böyüdüb boya-başa çatdırmış, tərbiyə etmiş insanı satmağına görə demək olar ki, vicdan əzabı çəkmir, onun atalığı isə əsla təəssüflənmir ki, özünün oğlu hesab etdiyi oğlan birdən-birə təzə atasının tərəfinə keçib. Üstəlik, hətta buna sevinir də: "Axır ki, mənim oğlum müdafiə olunacaq".

Həqiqətən, filmin müəlliflərinin bizə Azərbaycan kimi qələmə verdikləri - nazirdən başlamış aeroportdakı həyasız qeydiyyatçıya qədər hamının əclaf olduğu, ac qalmağa razı olduğu, amma təki qoca gürcünü dəstə ilə döyüb öldürmək imkanı verilməsini istəyən insanların dünyasında heç kəs müdafiə oluna bilməz.

...Bu filmdə yalnız bir insan haqqında yaxşı fikir söylənilir. Moskvada qoca erməni bizim qəhrəmandan soruşur: "Tamaşa necə adlanır?"- "İbrahimbəyovun "İlgək" pyesi". "İbrahimbəyov? Məgər bu azərbaycanlıdır?". Qəhrəmanımız baş barmağını yuxarı qaldıraraq deyir: "Bax, belə adamdır" (yəni, qəribə də olsa yaxşı adamdır, başqaları kimi deyil).

Bu filmdə Moskva müqəddəs məkandır, orada bütün problemlər həll olunur, hamı xoşbəxtlik tapır. Finalda bu fikir bəsit müqayisə yolu ilə ifadə olunub: Bakıda sözlərinə əməl etməyən yaramazlar bədbəxt azərbaycanlının ofisini darmadağın edirlər (vəhşilər hətta sevimli oyuncağa da rəhm etməyiblər), Moskvada isə həmin dövrdə ağıllı tərpənib gedənləri böyük uğur gözləyir: tamaşaçılar pyesi gurultulu alqışlarla qiymətləndirirlər. Mənası aşkardır - istər Bakıda bağlanmış ofis, istərsə də Moskvadakı alqışlar - bütün bunlar Sovet imperiyasının dağılmasına görə təəssüflənidiyini heç vaxt gizlətməyən müəllifin özünün həyatında baş verənlərdir.

### Bəs gürcü rejissoru buna sövq edən nə olub?

Azərbaycanlıları yaramazlar və cəlladlar kimi göstərmək arzusu onun təhtəlşüurunun hansı guşəsində yaranıb (Gürcüstanın indiki Prezidenti də Xocalı qurbanlarının xatirəsinə ehtiramını bildirməkdən imtina edib). Aşkardır ki, rejissor bu başdansovdu, açıqaydın xaltura tipli işində öz qarşısına heç bir yaradıcı vəzifə qoymayıb, Puşkinin duel tapançası tipli operetta yaradıb. Film Azərbaycan dilini yaxşı bilməyən insanlar tərəfindən səsləndirilib (məsələn, rəsmi məmur "növbətçi" əvəzinə "dejurnA" deyir). Eybəcər sifətli bakılı millətçilərin rollarını gürcülər ifa edir, çünki bu filmdə ssenari müəllifinin ən yaxın qohumlarından başqa heç bir azərbaycanlı iştirak etmək istəməyib.

Filmdə personajlardan biri deyir: "Ermənilər bizim bir nömrəli düşmənlərimizdir". Bax, burada müəllif Qarabağ münaqişəsinin başlıca səbəbini nə də görməsini aydın ifadə edir. Buna səbəb Azərbaycan torpaqlarının işğal edilməsi deyil, yeri gəlmişkən, filmdə bu barədə bircə kəlmə də deyilmir. İbrahimbəyovun fikrincə, buna səbəb azərbaycanlıların ermənilərə izahedilməz nifrətidir. Hazırda geniş yayılmış bu nöqteyi-nəzər Rusiya KİV-ləri tərəfindən səylə ictimai şüura yeridilir. Bu fikri azərbaycanlıdan eşitmək xüsusilə "qiymətlidir". Aydın məsələdir ki, bunu təşəkkür almaq, filmdə göstərildiyi kimi, pyes müəllifinin alqışlanması üçün edirlər. Bu film Böyük Ağ Çarın qarşısında qulluq göstərmək cəhdi (özü də heç də birinci olmayan cəhd), yalnız özünü vəhşi həmvətənləri fonunda humanist və bu humanizminə görə qəhrəman kimi göstərmək istəyidir. Bunlar həmin "vəhşilər"dir ki, müəllif yaxın keçmişdə prezidentliyə namizədliyini irəli sürərək onlara rəhbərlik etməyə hazırlaşırdı. Belə sənətkarlar Sovet imperiyasının tipik məhsuludur. Onlar ümid bəslədikləri təşəkkürü alır və rəğbəti qazanırlar. Lakin bunlar həmişə ikrah doğurur. Bəs hələ də Bakıda mövcud olan və bu müəllifin hələ də nominal rəhbərlik etdiyi təşkilatın üzvləri hansı hissləri keçirirlər?

***Ayaz Salayev***
***kinorejissor***

# Akif Aşırlı: "Rüstəm İbrahimbəyov hər zaman erməni mövqeyindən çıxış edib"

***"Hər bir yaradıcı insan yazdığı əsərlə öz şəxsiyyətini, düşüncəsini, baxışını millətinə xalqına, tarixinə olan münasibəti ortaya qoyur. Rüstəm İbrahimbəyovun ssenari müəllifi olduğu "Qafqaz üçlüyü" filmi də onun kimliyini bir daha üzə çıxarmış olub". Bu fikirləri SİA-ya açıqlamasında "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı deyib. Onun sözlərinə görə, sözügedən filmdə R.İbrahimbəyovun azərbaycanlılara olan münasibətini gözlənilləndir: "Çünki, biz hər zaman onun Azərbaycanın maraqlarına qarşı fəaliyyət göstərdiyinin şahidi olmuşuq.***

R.İbrahimbəyov hər zaman torpaqlarımızı işğal edən, soyqırıma məruz qoyan, ümumiyyətlə türk dünyasına qarşı ərazi iddiaları ilə çıxış edən ermənilərin mövqeyindən çıxış edib. O, hər zaman türklərə qarşı içində kin gəzdirən birisidir ki, bu filmdə məhz bu hislərin açıq şəkildə ifadəsidir".



A.Aşırlı hesab edir ki, zaman-zaman belə insanlara dəstək verən, onu Azərbaycanda vahid prezidentliyə namizəd görmək istəyən insanlar nə qədər böyük səhvə yol verdiklərini düşünməlidirlər: "Həmin şəxslər bu xalqın qarşısında günahlarını yuya biləcəklərmi? Nə yaxşı ki Azərbaycan dövləti və onun ağıllı, düşüncəli xalqı var. Azərbaycan xalqı ağı qaradan seçməyi bacarır və bu tip insanlara olan münasibətini zamanında ortaya qoyub".

# Səs Media Qrupu və ADNSU-nun Cümhuriyyətin 100 illiyi ilə bağlı birgə tədbiri keçirilib

***Dünən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Səs Media Qrupun birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ilə bağlı tədbir keçirilib. SİA-nın xəbərinə görə, tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.***

Tədbirdə ilk çıxış edən ADNSU-nun rektoru Mustafa Babanlı qonaqları salamlayaraq bildirib ki, ötən il Azərbaycan Prezidenti İlham Əliyev AXC-nin 100 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzalayıb ki, hazırda ölkədə bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir.

Bugünkü Azərbaycan Respublikasının AXC-nin varisi olduğunu deyən rektor söyləyib ki, ölkəmiz xristianlığı ilk qəbul və təşviq edən iki ölkə arasında müstəqillik əldə edib: "Onlardan biri Ermənistan, biri Gürcüstandır. O dövrdə Azərbaycan nümayəndə heyəti Paris sülh konfransına viza ala bilmir, aylarla Türkiyədə qalırdılar. Belə şəraitdə dövlət qurmaq çox çətin idi. Amma o dövrün ziyalıları bunu bacardı və biz bu gün fəxrlə qeyd edirik ki, Azərbaycan Xalq Cümhuriyyəti şərqdə ilk demokratik respublikadır".

Cümhuriyyət dövründə Azərbaycanda vəkillər kollegiyasının fəaliyyət göstərdiyini bildirən M.Babanlı söyləyib ki, bunu həmin dövrdə yalnız güclü dövlətlər yarada bilərdilər: "AXC-nin yaradılmasına baxmayaraq o dövrdə çox böyük çətinliklər var idi. Azərbaycanın nefti ölkəsi olaraq bütün dünyanın diqqətini cəlb etməsi bir sıra problemlərə gətirib çıxardı. Lakin Azərbaycanın ən çətin dövrlərində liderləri ilə bağlı bəxti gətirib. Belə ki, ilk Cümhuriyyət Məmməd Əmin Rəsulzadə tərəfindən yaradılıbsa, Azərbaycanın ikinci dəfə müstəqilliyini qoruması Ulu Öndər tərəfindən həyata keçirilən siyasət nəticəsində mümkün olub".

Təhsilə diqqəti cəlb edən rektor söyləyib ki, müstəqilliyimizin qorunması üçün təhsil mühüm amillərdən biridir: "Universitet olaraq bu uğurların davamı ilə getməliyik".




Konfransda Cümhuriyyət tarixi haqqında məlumat verən tarixçi-alim Firdovsiyə Əhmədova bildirib ki, Cümhuriyyətin yaradılması ilə bağlı məsələ XX əsrin əvvəllərində ziyalıların fikrində yer almışdı: "1905-ci ildə bu fikir əsasında müzakirələr aparılıb. 1917-ci ildə çap edilən məqalədə Cümhuriyyətin xalqın maraqlarının müdafiə istiqamətində vasitə olduğu açıqlanmışdı. O dövrdə xalqın maarifləndirilməsində əsas vasitə teatr olduğundan, əsas məqsədlərdən biri müstəqil mətbuatın yaradılması olub. 1906-cı ildə Əli bəy Hüseynzadə "Azərbaycan" qəzetinin nəşrinə icazə istəsə də, ona icazə verilməyib və bu qəzet "Həyat" adı ilə fəaliyyət göstərməyə başlayıb. Cümhuriyyətlə bağlı qeyri-leqal fəaliyyət müxtəlif yazılar vasitəsilə həyata keçirilən maarifləndirmə ilə başlamışdı.1 917-ci ilin yazından 1918-ci ilin mayına qədər bu istiqamətdə işlər həyata keçirilirdi. Lakin leqal imkan 1918-ci ildə yarandı və bununla da AXC yaradıldı".



Çıxışı zamanı AXC dövründə neft amilinə diqqəti yönəldən tarixçi söyləyib ki, I dünya müharibəsində Bakı nefti daim diqqətdə olub: "O dövrdə regionda aktiv olan ölkələr Böyük Britaniya, Almaniya, Gürcüstan, Rusiya idi. AXC Tiflisdə elan edildi. Bu şərəfli tarixə nəzər saldıqda o dövrdə bir nömrəli problem Bakının azad olunması idi. Bakı məsələsini diplomat yolu ilə əldə etmək mümkün deyildi. Nəhayət sentyabrın 15-də Bakı azad edildi. Amma o dövrün uğurları bununla bitmədi, Şərqdə ilk parlament, ordu yaradıldı, təhsil, mətbuatla əlaqədar mühüm işlər görüldü. Amma bununla yanaşı ən böyük nailiyyət Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə de fakto tanınması idi ki, 1920-ci ildə buna da nail olundu".

F. Əhmədova qeyd edib ki, AXC-nin süqutu təbii son deyildi, Rusiya ordusunun işğal faktı idi: "O dövrdə Azərbaycana yardım edə biləcək Gürcüstan idi ki, onlar sovet bolşeviklərinə qarşı döyüşə bilməyəcəklərini açıqladılar. Daha sonra Türkiyə kömək edə bilərdi ki, həmin dövrdə Osmanlı İmperiyasının süqutu buna imkan vermədi. Amma bütün bunlara baxmayaraq, AXC-nin fəaliyyəti az müddətli olsa da, çox böyük şərəfli yol keçib. Bu, təkcə Azərbaycanın bayramı deyil, bütünlükdə müsəlman ölkələrinin bayramıdır. Bu neməti bizə bəxş edənlərə minnətdar olmalıyıq".

Milli Məclisin deputatı Aydın Mirzəzadə söyləyib ki, bu bayram hər birimiz üçün çox qiymətlidir: "ADNSU-da belə bir tədbirin keçirilməsi çox önəmlidir. Çünki ölkəmizin gələcək iqtisadiyyatının inkişafı sizlərdən asılıdır".

Deputat bildirib ki, Azərbaycanın xalqının yenidən müstəqillik qazanması, onun tarixən müstəqil təfəkkürə malik olması ilə bağlıdır: "Çünki müstəillik bizim təfəkkürümüzdə var idi. Azərbaycan xalqı tarixin səhnəsinə neft milyonerləri çıxardıb. 1918-ci ildə sıfırdan bir dövlət yaradıldı. 23 ay sürməsinə baxmayaraq AXC tariximizdə şərəfli yolu ilə seçilir. AXC dövründə çoxlu sayda ilklərə imza atılıb. 23 ay dünyaya göstərdik ki, Azərbaycan xalqı müstəqil dövlət yarada bilir. Müstəqilimizi əlimizdən aldıqdan sonra onu yaradanların həyatları əllərindən alındı. Çünki buna qarşı çıxanlar qorxurdular ki həmin şəxslər yenidən bunu bərpa edə bilərlər".

A.Mirzəzadə söyləyib ki, Azərbaycana məhdud muxtariyyət verilməsinə baxmayaraq, ölkəni azərbaycanlılarsız idarə etməyə üstünlük verilirdi: "1932-ci ildə ölkə rəhbərliyindən cəmi 9 faizi azərbaycanlı idi. Bu faciə idi. Amma AXC fəlsəfəsi daim ürəklərdə yaşadı. 1988-ci ildə Ermənistan növbəti dəfə Azərbaycana qarşı işğalçılıq siyasətini həyata keçirdi. Yalnız Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdışından sonra torpağımıza sahib çıxa bildik. Ondan sonra baş verənləri isə hər kəs bilir. Müstəqil olmaq asan, lakin onu saxlamaq çətindir. İndiki gənclər Azərbaycana sahib çıxmalı, sərvətlərimizi qorumalıdırlar".

Konfransın davamında çıxış edən Səs Media Qrupun rəhbəri Bəhruz Quliyev Dövlət başçısı İlham Əliev tərəfindən imzalanan sərəncamından irəli gələrək həm ölkəmizdə, həm də ölkə xaricində Cümhuriyyətin 100 illiyi ilə bağlı geniş tədbirlər keçirildiyini bildirib. ADNSU-da keçirilən tədbirin Səs Media Qrupunun birgə təşkilatçılığı əsasından baş tutduğunu dilə gətirən B.Quliyev söyləyib ki, bu tədbirlərin kökündə tələbə-media münasibətləri də öz əksini tapır: "Hər bir dövrdə şəxsiyyətə ehtiyac olur. AXC-nin yaradılmasında ziyalıların rolu çox böyük olub. AXC tariximizə qızıl hərflərlə yazılıb. Cümhuriyyət Azərbaycan mətbuatında fəaliyyət göstərən ziyalıların gücü ilə quruldu. 23 ay müddətində inqilabi dəyişikliklər əldə olundu. Qısa müddətdə dövlət atributları formalaşdırıldı, ordu, parlament və digər ilklərə imza atıldı. AXC-nin yaranmasından keçən 100 illin 50 ili Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır".

90-cı illərin əvvəllərində Azərbaycanın yox olma təhlükəsi ilə üz-üzə qaldığını xatırladan B.Quliyev qeyd edib ki, həmin dövrdə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı bunun qarşısını aldı: "Bu gün biz Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində görülən mühüm işlərə görə, Prezident İlham Əliyevə təşəkkür etməliyik. Mən əminəm ki, bugünkü gənclik daim bu siyasəti dəstəkləyəcək və müstəqilliyimizin yanında olacaq".

Tədbirin sonunda çıxış edən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə vurğulayıb ki, AXC-nin yaranması tarixi nailiyyətdir: "Cümhuriyyət dövründə milli atributlarımız formalaşdı, təhsilləbağlı bir sıra mühüm işlər görüldü. 23 aylıq Cümhuriyyət 1991-ci ildə yenidən müstəqilliyini bərpa etməklə çətin dövrünü yaşadı. Yalnız Ulu öndərin qətiyyəti nəticəsində müstəqilliyimizin bərpasına nail olundu. Biz də vətəndaş olaraq öz mövqeyimizi göstərməli, Azərbaycan dövlətinin yanında olub, Ölkə başçısı tərəfindən həyata keçirilən işləri dəstəkləməliyik". Tədbir müzakirələrlə davam edib.

# Rüstəm İbrahimbəyov - gerçək xəyanətin "siması"

## Yaxud onu "prezident" kimi sırıyanların səsləri niyə çıxmadı?

*Bizlər zaman-zaman adlarını "ziyalı", "siyasətçi" və s. adlandıranların xəyanətlərini, təəssüf ki, bu gün də müşahidə etməkdəyik. Hələ Əkrəm Naibovun (Əylisli-red.) "Daş yuxuları"nın səsi-sorağı yenicə çəkilirdi ki, bu dəfə "qoca professor" ləqəbli qondarma siyasətçi Rüstəm İbrahimbəyovun 2015-ci ildə çəkdiyi "Qafqaz üçlüyü" filmi Azərbaycan xalqının kəskin qınağı və hiddətinə səbəb oldu. Sadəcə, təsəvvürə gətirmək çətindir ki, özünü bu xalqın üzvü hesab edəsən və xalqına, millətinə və dövlətinə bu qədər qənim kəsiləsən. Hətta elə düşmənçilik edəsən ki, azərbaycanlıya, bütövlükdə isə, türk dünyasına qarşı çıxan erməni ictimai-siyasi dairələri sənə "bravo" desin (!!!???-red.).*



### Rüstəm İbrahimbəyov nifrət etdiyi Bakıda - dələduzluq yolu ilə mənimsədiyi qanunsuz torpaqlarını itirəndən və "siyasət aləminə" qatılandan dərhal sonra onda ermənilərə olan hədsiz sevgisi üzə çıxmağa başladı

Çünki bu bədnam "yaradıcılıq əsərində" Azərbaycan xalqı qəddar, riyakar, yalançı, mədəniyyətsiz, milli kökləri olmayan şəkildə, tarix boyu vətənləri olmayan, yalnız 1918-ci ildə "Ermənistan" adlı saxta dövlət quran və köçəri həyatı sürən ermənilər isə kübar, məzlum, "vəhşi türkün qurbanı" olaraq təqdim ediliblər.

Vaxtilə İbrahimbəyovun tutduğu "karyera", sonradan onun ermənilərə olan məhəbbəti ilə nəticəsini tapdı və o, bilavasitə özlərini müxalifətin "lideri" kimi təqdim edilən AXCP sədri Əli Kərimlinin, "Milli Şura"nın sədri Cəmil Həsənlinin tayına çevrildi. Hələ o zamanlardan, yəni R.İbrahimbəyov bu gün nifrət etdiyi Bakıda - dələduzluq yolu ilə mənimsədiyi qanunsuz torpaqlarını itirəndən və "siyasət aləminə" qatılandan dərhal sonra onda ermənilərə olan hədsiz sevgisi üzə çıxmağa başladı. Daha dəqiq desək, kinorejissor kimi fəaliyyətinin "pərdəarxası oyunlar"ı üzə çıxdıqca, onun ermənilərə sevgisi də özünü gizlədə bilmədi. Lakin...

### Mitinqlərində boğazdan yuxarı "ulu xalqım", "sevgili millət" deyə xitab edən siyasi manqurtlar nədənsə, "Qafqaz üçlüyü" məsələsində susqun dayanıblar

Lakin "Milli Şura" adlı qondarma bir quruma sədrlik edib, prezidentliyə namizəd kimi xalqa təqdim edilən İbrahimbəyov bu gün erməni məhəbbəti ilə sübut edir ki, o və onu müdafiə edənlər azərbaycanlılara erməni daşnakları qədər, hətta daha artıq nifrət edirlər. Halbuki mitinqlərində boğazdan yuxarı "ulu xalqım", "sevgili millət" deyə xitab edən siyasi manqurtlar nədənsə, "Qafqaz üçlüyü" məsələsində susqun dayanıblar. Uzağı "xalaxətrin qalmasın" stilində bir-iki kəlmə ağızucu ifadə işlədərlər, ya da ümumiyyətlə, işlətməzlər. Hansı ki, başqa vaxtlar danışanda ağızlarına "çullu dovşan" belə yerləşmir. Əcəba, bəs niyə indi susurlar? Məsələ ondadır ki, danışsalar, erməni qohumları pullarını kəsər, bu qədər bəsit..!

Beləliklə, əminliklə deyə bilərik ki, bu xəyanətə aparan yolda Rüstəm İbrahimbəyov tək deyil. Bir qrup züy tutanları da var ki, onlar bizim dildə danışsalar da, düşüncələri nə xəlqidir, nə də milli.

### Məhz "Daş yuxular" adlı bədnam cızma-qaraya qarşı xalq hiddəti artarkən, Rüstəm İbrahimbəyov Rusiyanın "Rosbalt" informasiya agentliyinə müsahibə verərək, Əkrəm Naibovun ermənipərəst mövqeyini müdafiə etmişdi!

Yeri gəlmişkən, bu, həmin R.İbrahimbəyovdur ki, Əkrəm Naibovla xarici dairələr hesabına yaradılmış anti-Azərbaycan xarakterli "Ziyalılar Forumu" adlanan qurumun həmtəsisçiləri qismində çıxış edib. Məhz "Daş yuxular" adlı bədnam cızma-qaraya qarşı xalq hiddəti artarkən, R.İbrahimbəyov Rusiyanın "Rosbalt" informasiya agentliyinə müsahibə verərək, Ə.Naibovun ermənipərəst mövqeyini müdafiə etmişdi!

Bu gün bir çoxları sosial şəbəkə vasitəsi ilə R.İbrahimbəyovu haqlı şəkildə ittiham etməklə yanaşı, sual verirlər - maraqlıdır, Rüstəm İbrahimbəyovu vadar edən nədir ki, ermənilərin müdafiəsinə qalxıb təcavüzkar Ermənistanla əraziləri 20 faiz işğala məruz qalan, bir milyondan artıq qaçqın və məcburi köçkünü olan Azərbaycanı eyniləşdirir? Bu, nəinki rəzilliyin, satqınlığın göstəricisidir, əslində, milli dövlətçiliyə arxadan zərbə və xalqa xəyanət deməkdir!

### Həm erməni məhəbbəti, həm də erməni puluna hədsiz sevgi!

Söz yox ki, R.İbrahimbəyovun Azərbaycan dövlətinin və xalqının üzləşdiyi faciələr silsiləsindən xəbəri var, sadəcə, özünü erməni bicləri kimi bilməzliyə qoyub. Ancaq bu gün ona və vaxtilə onu Azərbaycan xalqına "prezident" kimi sırımağa cəhd edənlərə bir daha xatırlatmağın tam yeridir. Misal üçün, xatırlatmaq lazımdır ki, ermənilər Xocalını, Qaradağlını, Bağanis-Ayrımı, Kərkicahanı, Ağdabanı yerlə yeksan ediblər, tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda olmazın soyqırımları həyata keçiriblər. Məgər "bu gün onlar da, yəni ermənilər də azərbaycanlılar kimi baş verənlərin qurbanıdır" deyəndə, xəyalınıza tarixlər boyu dəhşətli işgəncələrə məruz qalan xalqımız da gəlmirmi?! Ümumiyyətlə, sizin kimi siyasi manqurtlarda vicdan deyilən məfhum mövcuddurmu???!!! Rüstəm İbrahimbəyovun milli hissləri o qədər ölüb ki, hətta Azərbaycan xalqının tarixi torpaqlarına da şübhə ilə yanaşır. Bilmək olmur ki, Rüstəm İbrahimbəyovda əminlik haradan yaranıb ki, ermənilər Azərbaycan xalqının, daha geniş mənada, türk dünyasının düşməni deyil???!!!

Hər halda, fakt ortadadır, özü də elə bir fakt ki, bu faktın arxasında siyasi ibnəlikdən doğan ifrat erməni məhəbbəti dayanıb. Həm erməni məhəbbəti, həm də erməni puluna hədsiz sevgi!

**Rövşən NURƏDDİNOĞLU**

# "Müxaliflər pul qarşılığında özlərini satışa çıxarıblar"

Müxalifətdaxili qarşıdurmalar partiyaların sıradan çıxmasına gətirib çıxarmaqdadır. "Azadlıq" Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, proseslər bu formada davam edərsə, yaxın vaxtlarda bir neçə partiya fəaliyyətini dayandırmalı olacaq: "Bu gün müxalifət düşərgəsini təmsil edən şəxslərin əsas maraqları müxtəlif vasitələrlə xarici qüvvələrin diqqət mərkəzinə çevrilməkdir. Belə olanda da, istər-istəməz, mənəmmənəmlik iddiası ortaya qoyulur. Bu mənəmmənəmlik iddiası da müxalifəti təmsil edən şəxslərin daimi birgə fəaliyyət göstərməyinə mane olur və olacaqdır. Çünki bunlar öz daxillərində belə bir-birlərini sıradan çıxartmaq və özlərini xaricdə olan havadarlarının gözünə soxmağı hədəfləyiblər. Bir sözlə, özlərini pul qarşılığında xarici qüvvələrə satan Xədicə İsmayıl kimilərinin ölkəmizlə bağlı məkrli planları heç vaxt baş tutmayıb və tutmayacaqdır".

T.Novruzov onu da bildirdi ki, bu gün müxalifət tərəfindən hər hansı bir qurum yaradılsa belə, o, heç nəyi dəyişməyəcək: "Ümumiyyətlə, bu illər ərzində radikal müxalifət tərəfindən yaradılan bloklar, qurumlar və onların birləşmələri sonda ayrılmalarla nəticələnir. Ayrımalarının da səbəbi şəxsi maraqları və xarici havadarları tərəfindən gələn pulların bölüşdürülməsində yaranan problemlərdir".



T.Novruzovun sözlərinə görə, dağıdıcı müxalifət partiyaları 1990-cı illərdən necə yaranıbdırsa, indinin özündə də həmin vəziyyətdə qalmaqdadır: "Birmənalı şəkildə həmin partiyalar öz tərəfdarlarını itirə-itirə getməkdədirlər. Adıçəkilən partiyalar sədrlərindən və ətrafında 2-3 nəfərdən ibarət olaraq qalıbdır. Bütün bunlar da onların zəif şəkildə inkişaf etmələrindən xəbər verir. Ümumiyyətlə, müxalifət partiyalarının zəif olmalarının əsas səbəbi sözügedən partiyalara rəhbərlik edən liderlərin səhv siyasət aparmaları ilə bağlıdır. Bir sözlə, adıçəkilən partiya sədrləri öz səhvlərini, öz içərilərində, partiyalarında və fəaliyyətlərində axtarmalıdırlar".

**GÜLYANƏ**

# Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

Mayın 23-də Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda altı məsələyə baxılıb. Gündəlik barədə məlumat verən Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov qeyd edib ki, 2016-cı ildə ölkəmizdə keçirilmiş referendum nəticəsində Konstitusiyaya edilən dəyişikliklər bəzi qanunvericilik aktlarının uyğunlaşdırılması zərurətini meydana gətirib.



İclasda Milli Məclis Aparatının inzibati və hərbi qanunvericilik şöbəsinin əməkdaşı Eldar Əsgərov "Dövlət sirri haqqında" və "Sərhəd qoşunları haqqında" qanunlarda aparılan dəyişikliklər barədə deputatlara ətraflı məlumat verib. Bildirib ki, əsas məqsəd qanunvericilikdə mövcud olan uyğunsuzluqların aradan qaldırılmasıdır.

Sonra komitə sədri Ziyafət Əsgərov növbəti qanun layihələrini şərh edib. Diqqətə çatdırıb ki, 2017-ci ildə Azərbaycan Prezidentinin Fərmanına əsasən, sərhəd qoşunlarında struktur dəyişikliyi aparıldığına görə həmin müddəanın "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunda da öz əksini tapması vacibdir. "Mülki müdafiə haqqında" qanunda dövlət qulluqçularının statusu ilə bağlı konkretləşmə aparılır. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Siyasi partiyalar haqqında" qanunlara təklif olunan dəyişikliklər isə redaktə xarakterlidir. Komitə üzvləri təklif olunan dəyişikliklərlə bağlı fikir mübadiləsi aparıblar. Gündəlikdəki bütün qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

# Qüds məsələsi: İƏT toplantısı və pərdə arxasındakı üç zümrə

***İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fövqəladə sammiti keçirilib. Tədbirin təşəbbüskarı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olub. Toplantıya İordaniya Kralı, Qətər Əmiri və İran Prezidenti də qatılıb. İştirakçılar Amerika səfirliyinin Qüdsə köçürülməsi nəticəsində regionda yaranmış geosiyasi vəziyyəti müzakirə ediblər. İƏT yekunda bir sıra qərarlar qəbul edib. Onların sırasında İsrail və ABŞ-a qarşı birgə fəaliyyət haqqında müddəalar da var. O cümlədən bu iki ölkəyə Qüds məsələsində dəstək verən dövlətlərə qarşı da sanksiyaların tətbiq edilməsi imkanlarından bəhs edilib. Bununla ekspertlər İslam aləmində müəyyən bir siyasi təşkilatlanmanın olduğu barədə fikir bildirirlər. Onlar hesab edirlər ki, İslam ölkələri birlikdə ciddi addımlar atmalıdırlar ki, qarşıya çıxan maneələri dəf etsinlər. Bu aspektdə ABŞ siyasətinə təsir edən üç zümrənin mövcudluğu ilə əlaqədar mətbuatda dərc edilən yazılar da diqqəti çəkir. Onların üzərində geniş dayanmağa ehtiyac görürük.***




## Fövqəladə toplantı: müsəlman ölkələrini Qüds birləşdirir

ABŞ-ın səfirliyini Təl-Əvivdən Qüdsə köçürməsi İslam aləmində böyük siyasi əks-reaksiya doğurdu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) növbədənkənar toplantısını təşkil etdi. Tədbir İstanbulda keçirildi. Təbii ki, onun əsas müzakirə mövzusu Qüds məsələsi idi. İƏT Vaşinqtonun məlum addımını kəskin qınayaraq diplomatik nümayəndəliyin Qüdsə köçürülməsinin beynəlxalq hüquq normalarına zidd olduğunu vurğuladı. Bununla, əslində, Amerika Yaxın Şərqdə yeni müharibəyə rəvac vermiş oldu. Bunun ilk əlaməti Qəzzədə 60-dan çox fələstinlinin qətlə yetirilməsidir. Proses bütövlükdə böyük təhlükələr meydana çıxara bilər.

İƏT həmin səbəblərdən yalnız sözdə qınama ilə kifayətlənməyib. Toplantıda çıxış edənlər konkret addımlardan da bəhs ediblər. ABŞ, İsrail və onlara dəstək verən ölkələrə qarşı sanksiyaların tətbiq edilməsi də təklif olunub. Prezident R.T.Ərdoğan tədbirdəki çıxışı zamanı deyib: "Qınamaq, hirslənmək, bağırmaq bu günə qədər işğalı dayandırmadığı kimi, bundan sonra da dayandırmayacaq. Müsəlmanlar öz haqlarını alana qədər heç kim bizə haqqımızı qızıl teştdə verməyəcək" (bax: "Kudüs, bir terör devletinin insafına bırakılmayacak kadar mukaddes ve mübarek bir beldedir" / www.tccb.gov.tr, 18 may 2018).

R.T.Ərdoğan sözlərinə davam edərək Amerikanın Qüds qərarının İslam dünyasına yönəlik yeni əməliyyatların müjdəçisi olduğunu ifadə edib. Və əgər bununla bağlı lazımi addımlar atılmasa, daha ağır hadisələr qaçılmazdır (bax: əvvəlki mənbəyə). Toplantıda iştirak edən digər dövlət başçıları bu mövqe ilə razılaşıblar ki, bu da qəbul edilən yekun bəyannamədə öz ifadəsini tapıb. Orada yer alan müddəalara görə, İƏT ABŞ, İsrail və onlara dəstək verən dövlətlərə qarşı iqtisadi, siyasi, diplomatik tədbirlər görə bilərlər. Çox güman ki, əsas yeri iqtisadi-ticari sanksiyalar tutur. Alınan qərarın nə dərəcədə həyata keçiriləcəyini zaman göstərəcək. Lakin ekspertlər İƏT-in son toplantısında əldə edilən razılıqların geosiyasi əhəmiyyətini artıq vurğulayırlar.

Doğrudan da, ilk dəfədir ki, İslam ölkələri təşkilat halında ABŞ-a qarşı hansısa addım atmağa qərar verirlər. Məsələ heç də bunun Amerikaya necə təsir edəcəyi ilə bağlı deyil. Burada iki əhəmiyyətli məqam var. Birincisi, İƏT məsələni BMT-də qaldırmaq qərarına gəlib. Burada ABŞ-ın addımlarına müəyyən qiymət verilsə, vəziyyət ciddiləşər. Bu bağlılıqda maraqlıdır ki, R.T.Ərdoğan Rusiya və Almaniya rəhbərliyi ilə də məsələni müzakirə etdiyini söyləyib. Angela Merkel və Vladimir Putin İƏT-i faktiki olaraq dəstəkləyiblər. Yəni, əgər BMT-də məsələ müzakirə edilsə, Rusiya dəstək verəcək. Gözləmək olar ki, digər böyük dövlətlər də Vaşinqtonun əməllərini qınayacaqlar.

KİV-də yayılan informasiyalara görə, Avropanın üç dövləti - Almaniya, Fransa, Böyük Britaniya, həmçinin Rusiya və Çin İranla nüvə sazişinin Amerikanın iştirakı olmadan yeni variantı üzərində işləmək niyyətindədirlər. Onlar bununla bağlı Vyanada görüşməyi nəzərdə tutublar. Bu informasiya öz təsdiqini tapsa, Vaşinqton müəyyən mənada dünya siyasətində təklənmiş olacaq. Məsələnin bu tərəfini daha əhəmiyyətli edən başqa bir faktor da var.

## Gizli dəstək: ABŞ hakimiyyətinə təsir edən qruplar

İkincisi, Türkiyə mətbuatı Amerika hakimiyyətində baş verən dəyişikliklərlə Qüds hadisəsi arasında pərdəarxası əlaqələrin olması barədə yazılar dərc edir (bax: məs., Serdar Turgut.Kudüs'ün arka planı / "Habertürk", 16 may 2018). Vaşinqtonun fəaliyyətində üç pərdəarxası məqamın olduğu haqqında yazılır. Onlardan birincisi - xristian sionistlər, ikincisi - yevangelistlər, üçüncüsü isə - neokonlardır (neokonservatorlar). Bu üç zümrə indi Amerikanın xarici siyasətinin məzmununa ciddi təsir edirlər.

Onların başlıca məqsədləri güc hesabına amerikan dəyərlərini dünyaya qəbul etdirməkdən ibarətdir. Bu bağlılıqda İsrailin müdafiə olunması əsas yerlərdən birini tutur. Bütün şərtlər daxilində İsrailə dəstək verilməlidir. Xristian sionistlərin başlıca siyasi məqsədinin bundan ibarət olduğu çoxdan məlumdur. Bu prosesdə neokonservatorların yaratdığı "Foundation for Defense of Democracies" (FDD) vəqfi böyük rol oynayır. Onlar ABŞ hakimiyyətində öz adamlarını sistemli və ardıcıl olaraq yerləşdirməkdədirlər. Donald Trampın prezident olmasında həmin zümrənin rolu olduğu vurğulanır. Hazırda D.Tramp administrasiyasında baş verən kadr dəyişikliklərində əsas rolu da məhz onların oynadığı bildirilir (bax: əvvəlki mənbəyə). Təsadüfi deyil ki, administrasiyaya yeni kadrların gəlişini ilk bayram edən FDD olub.

Yevangelistlərə gəldikdə isə, onların ABŞ-da böyük dayaqlarının olmasından bəhs edilir. 2008-ci ildə İsrailin yaradılmasının 60 illiyi ilə bağlı Amerika yevangelistlərinin ciddi dəstək verdiyi haqqında KİV-də məqalələr dərc olunub (bax: məs., Evanqelistı nepokolebimı v podderjke İzrailə / "Qolos Ameriki", 8 may 2008). ABŞ-ın San-Antonio şəhərinin "Məhək daşı" kilsəsinin keşişi Con Haqi yevangelistdir. O, israilpərəst siyasətin tərəfdarıdır. C.Haqi deyib ki, 50 milyonluq amerikan yevangelistləri 5 milyonluq Amerika yəhudiləri ilə əlbir olsa, "bu, ilahi müttəfiqlik olacaq" (bax: əvvəlki mənbəyə).

Hələ 2006-cı ildə İsrail "Hizbullah"a hücum edərkən, C.Haqi Vaşinqtonda 3 min yevangelisti yığıb, İsrailə dəstək nümayiş etdirmişdi ki, bu da Təl-Əvivə şans vermişdi. Bütün bunlara görə də, D.Trampın Qüdsü İsrailin paytaxtı kimi tanıması barədə sənəd imzalaması və Amerika səfirliyinin Qüdsə köçürülməsinin bir təsadüf olmadığı, əksinə, Vaşinqtonda ciddi siyasi dəyişikliklərin baş verdiyini göstərir. O cümlədən mütəxəssislər Suriyada amerikalıların kürdləri dəstəkləməsini, bütövlükdə antitürkiyə ovqatının mövcudluğunu yuxarıda vurğulanan məqamlarla əlaqələndirirlər.

Əgər belə bir vəziyyət meydana gəlibsə, onda ABŞ-ın Yaxın Şərq siyasətində D.Trampın prezidentliyi dövründə müsbətə doğru dəyişikliyin olacağını gözləmək əbəsdir. Bunun fonunda İsrail-Fələstin münaqişəsinin də səngiməyəcəyini proqnozlaşdırmaq olar. Belə bir durum isə Yaxın Şərqdə geosiyasi situasiyanı daha da gərginləşdirə bilər. O cümlədən İsrail və ABŞ-ın antiiran addımlarının yeni səviyyəyə yüksələcəyini təxmin etmək mümkündür.

Bunlar onu ifadə edir ki, İƏT-in qəbul etdiyi qərarlar real olaraq İslam aləminin gələcəyinə ciddi təsir göstərə bilər. Söhbət hansısa keçici bir geosiyasi dalğaya qarşı durmaqdan getmir, Amerika hakimiyyətində "şahinlər" möhkəmlənirlər və onlar müharibələrə hazırdırlar. "Şahinlərin" müttəfiqləri isə yuxarıda vurğuladığımız üç zümrə və Yaxın Şərqdə konkret bir dövlətdir. Belə bir mövqe ilə dünya siyasətini hara aparmağın mümkün olacağını zaman göstərəcək. Lakin tarix həmişə sübut edir ki, ədalətsizlik, tərəfkeşlik və haqsızlıq sona qədər getmir. Haradasa qırılma nöqtəsi olur. Amerika üçün bunun hansı sonucları verəcəyini amerikan xalqı düşünməlidir. Üç zümrənin maraqları universal deyil.

**Newtimes.az**

# Müqəddəs Ramazan ayı ilə bağlı hədislər



"Ramazan ayı Allahın ayıdır. Bu ayda savablar ikiqat artar, günahlar silinər. Ramazan - bərəkət, tövbə, bağışlanmaq, cəhənnəmdən xilas olmaq və behişt qazanmaq ayıdır. Bu ayda hər cür günahdan çəkinin, Quran oxumağı çoxaldın, Allahdan öz ehtiyaclarınızı istəyin, Rəbbinizi tez-tez xatırlayın. Ramazan ayında oruc tutmadığınız günlərdəki vəziyyətdə olmayın (yəni daha yüksək mənəvi səviyyədə olmağa çalışın)".

Həzrəti Muhəmməd Peyğəmbər (s) Cabir ibn Abdullah adlı səhabəyə belə buyurub: "Ey Cabir! Hər kim Ramazan ayında gündüzlər oruc tutsa, gecələrin bir hissəsini oyaq qalıb ibadət etsə, cinsiyyət üzvünü və dilini günahdan, gözünü harama baxmaqdan çəkindirsə, camaata pislik etməsə, yeni doğulmuş körpə kimi günahlardan təmizlənər". Cabir dedi: "Sənə fəda olum, bu, nə yaxşı hədisdir!" Peyğəmbər ona belə cavab verdi: "Amma bu savaba yetməyin şərtləri də necə çətindir!"

Bir gün Muhəmməd Peyğəmbər (s) görür ki, həyat yoldaşlarından biri oruc tutduğu halda, öz xidmətçisini söydü. Peyğəmbər xanımına tapşırdı ki, yemək yesin. Qadın təəccüblə soruşdu: "Orucluq zamanı nə yemək?" Peyğəmbər buyurdu: "Bəs sən necə oruc tutmusan ki, xidmətçini söyürsən? Oruc təkcə yeyib-içməkdən çəkinmək deyil".

Bir gün Peyğəmbərimiz Ramazan ayının üstünlüklərindən danışarkən, Həzrət Əli əleyhis salam ayağa qalxıb soruşur: "Bəs, bu ayda yerinə yetirilməsi ən çox savab olan əməl hansıdır?" Peyğəmbər cavab verir: "Allahın qadağan etdiyi işlərdən çəkinmək".

Hədis: Allahın Peyğəmbəri (s): "Ramazan günahları yandırdığına görə Ramazan adlandırılmışdır".

Allahın Peyğəmbəri (s): "Ramazan ayının ilk gecəsi səmanın qapıları açılar və son gecəsinədək bağlanmaz".

Allahın Peyğəmbəri (s): "Əgər bəndə Ramazan ayının qiymətini bilərsə, ilin başdan-başa Ramazan olmasını istər".

Allahın Peyğəmbəri (s): "Ramazan ayının hilalı göründəndə, Cəhənnəmin qapıları bağlanar, Cənnətin qapıları açılar və şeytanlar zəncirlənərlər". İmam Əli (ə): "Bir gün Allahın Rəsulu (s) bizə xütbə söyləyən zaman buyurdu: "Ey insanlar! Həqiqətən, bərəkət, rəhmət və bağışlanmaq ayı sizə doğru gəlməkdədir. Bu ay Allahın yanında ən üstün ay günləri ən yaxşı günlər, saatları isə ən yaxşı saatlardır. Bu ayda siz, Allahın qonaqlığına dəvət olunmusunuz və Allahın kəramətindən bəhrələnənlərin cərgəsində dayanmısınız. Bu ayda sizin nəfəsləriniz Allaha təsbih, yuxunuz ibadətdir, əməlləriniz qəbul, dualarınız müstəcəbdir..." Mən qalxıb ərz etdim:"Bu ayda ən yaxşı əməl nədir?" Allahın Peyğəmbəri (s) buyurdu: "Ey Əbəl-Həsən! Bu ayda ən yaxşı əməl, özünü Allahın haram etdiklərindən çəkindirməkdir".

**İmsak:03:44**
**İftar: 20:10**

Ramazan ayının 8-ci gününün duası: İlahi, bu gün yetimlərə qarşı mehriban olmağı, ehtiyacı olanlara yemək verməyi, camaatla ucadan salamlaşmağı və kəramətli şəxslərlə dostluğu mənə nəsib et. Fəzl və bəxşişinə and verirəm, ey arzu edənlərin pənahı!

*(Ardı var)*

***Hazırladı: Sədaqət***



# Gəncədə Ulu Öndərin 95 illik yubileyinə həsr edilmiş silsilə tədbirlər davam edir

Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı gənclər birliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr edilmiş silsilə tədbirlər davam edir.

Şəhər icra hakimiyyəti, şəhər Gənclər və İdman Baş İdarəsinin dəstəyi ilə, hər il ənənəvi olaraq, keçirilən tədbirlər çərçivəsində gənclər "Heydər Əliyev irsini öyrənirik" adlı bilik yarışında, şahmat və stolüstü tennis turnirlərində bilik və bacarıqlarını sınayıblar. Bu dəfə isə futzal üzrə yarışlara start verilib.

Yarışda Gəncə Olimpiya İdman Kompleksində təşkil olunan birincilikdə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrindən ibarət komandalar iştirak edib.

Yarışın açılış mərasimi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. YAP Gəncə şəhər təşkilatı ideologiya şöbəsinin müdiri Hüseyn Budaqov, təşkilat şöbəsinin müdiri İsmayıl İsmayılov, Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov və yarışın baş hakimi Rasim Həsənov çıxış edərək, iştirakçılara uğurlar arzulayıblar. Onlar Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin qorunması, gücləndirilməsi sahəsində misilsiz xidmətlərindən danışıblar.

Sonra futzal üzrə birinciliyə start verilib. Gərgin mübarizə şəraitində keçən yarışda I yerə Gəncə Dövlət Universitetinin komandası, II yerə isə Gəncə Dövlət Regional Kolleci sahib olub.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibəti ilə keçirilən yarışlar "Kapital Bank"ın və "ABC Telekom" şirkətinin tərəfdaşlığı ilə həyata keçirilir.

***ZÜMRÜD***

# Ağcabədi gəncləri dövlətin narkomaniyaya qarşı mübarizə siyasətini dəstəkləyirlər

"Narkomanlığın qarşısının alınması üzrə profilaktiki tədbirlərin gücləndirilməsinə dair" tədbirlər planının icrası ilə əlaqədar Ağcabədi rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatı qadınlar şurası, Gənclər üçün Təhsil Mərkəzi Qarabağ Regional ofisi Ağcabədi rayon Polis Şöbəsi, Ağcabədi rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə yetkinlik yaşına çatmayanlar və gənclər arasında narkotik vasitələrin və psixotrop maddələrin insan orqanizminə məhvedici təsiri, törətdiyi sosial bəlalar, həmçinin, narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı barədə təbliğat aparılması məqsədi ilə cari ilin may ayında "Narkomaniyaya yox deyirik" başlığı altında Ağcabədi rayonunda maarifləndirmə tədbirləri həyata keçirilir.



Ağcabədi rayon Cəmil Quliyev adına Təzəkənd kənd tam orta məktəbində təşkil edilmiş növbəti tədbirdə Ağcabədi rayon icra hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın böyük məsləhətçisi-məsul katibi Nicat Axundov, rayon Polis Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun baş inspektoru Taleh Abbasov, Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri, Gənclər Təhsil Mərkəzinin Qarabağ ofisinin rəhbəri Radə Telmanqızı, Ağcabədi rayon Təhsil Şöbəsinin əməkdaşı Fehruz Rəfiyev mövzu ətrafında çıxışlar ediblər. Tədbirdə iştirak edən dinləyicilərə narkotiklərin insan orqanizminə məhvedici təsiri, cəmiyyətə və insanların sağlamlığına ziyanı və törətdiyi sosial bəlalar barədə ətraflı məlumatlar verilmiş, onları maraqlandıran suallar ətrafında geniş diskussiyalar aparılmışdır.

Sonda narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı barədə videofilm nümayiş olunub.

***ZÜMRÜD***

# İtaliya Senatının sədri: "Azərbaycan İtaliya üçün önəmli tərəfdaşdır"

İtaliya Senatının sədri Maria Elisabetta Kasellati Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə ilə görüşüb. Senatın sədrinə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunması ərəfəsində qəbul edildiyinə görə təşəkkürünü bildirən Məmməd Əhmədzadə bu Cümhuriyyətin müsəlman Şərqinə gətirdiyi yeniliklər və Azərbaycan tarixindəki rolu barədə məlumat verib. Diplomat Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra keçdiyi inkişaf yolundan, ölkəmizin əldə etdiyi nailiyyətlərdən, Azərbaycan-İtaliya strateji tərəfdaşlığından, iki ölkə arasında mövcud olan yüksək səviyyəli siyasi dialoqdan, parlamentlərarası əlaqələrdən, önəmli iqtisadi əməkdaşlıqdan, Cənub Qaz Dəhlizi, habelə Heydər Əliyev Fondunun iki ölkə arasında mədəniyyət sahəsində münasibətlərin inkişafına verdiyi töhfələrdən danışıb.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdıran İtaliya Senatının sədri Maria Elisabetta Kasellati Azərbaycanın zəngin tarixi-mədəni irsinə dərin rəğbət bəslədiyini deyib, ölkəmizin müstəqillik və inkişaf yolunda əldə etdiyi nailiyyətləri, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələri, Şərq və Qərb arasında strateji körpü rolunu yüksək qiymətləndirib.

Azərbaycanı İtaliya üçün önəmli tərəfdaş adlandıran Senatın sədri iki ölkə arasında əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu ifadə edib, əlaqələrin daha da genişləndirilməsi üçün qarşılıqlı mübadilələrin davam etdirilməsinin və birgə tədbirlərin təşkilinin önəmli olduğunu bildirib. Görüşdə, habelə regional təhlükəsizlik mövzuları, ölkəmizin multikulturalizm ənənələri və Azərbaycan-İtaliya əməkdaşlığının perspektivləri barədə fikir mübadiləsi aparılıb.



# "Bunun özü çox ciddi məsələdir"

## Mais Səfərli: "Dağıdıcı müxalifət ilə siyasiləşmiş QHT-lər arasında qrant üzərində böyük bir dava gedir"

*Müsahibimiz "Yurddaş" partiyasının sədri Mais Səfərlidir*

***- Mais bəy, son vaxtlar dağıdıcı müxalifət partiyaları ilə siyasiləşmiş QHT-lər arasında bir uçurum yaranıb. Bunun səbəbini nə ilə izah etmək olar?***

- Müxalifət partiyaları ilə siyasiləşmiş QHT-lər arasında yaranan bu uçurum qrant uğrunda gedən mübarizə ilə bağlıdır. Yəni dağıdıcı müxalifət ilə siyasiləşmiş QHT-lər arasında qrant üzərində böyük bir dava gedir. Bunun özü çox ciddi məsələdir. Çünki siyasi partiyalar haqqında qanuna görə, siyasi partiyalar xaricdən maliyyələşdirilə bilməz. Yəni əgər hər hansı bir siyasi təşkilat xarici qüvvələr tərəfindən maliyyələşdirilirsə, bu, həmin dövlət üçün təhlükə yaradır. Çünki xarici ölkə və qüvvələrin təsiri altına düşən siyasi təşkilatlar fəaliyyət göstərdikləri ölkələrin konstitusiya əsaslarına ciddi zərbə vura bilərlər. Bu baxımdan da, bu məsələ ciddi şəkildə hüquq-mühafizə orqanları tərəfindən araşdırılmalıdır.

***- Faktdır ki, dağıdıcı müxalifətin maliyyələşməsi siyasiləşmiş QHT-lər vasitəsi ilə həyata keçirilir. Konfliktin yaranması fonunda partiyaların ciddi maliyyə itkiləri ilə üzləşəcəklərini demək olarmı?***

- Xaricdə bunlara qrant verən qüvvələr öz etimadlarını itirəcəklər. Həm siyasiləşmiş QHT-lər, həm də müxalifət partiyaları onların etimadlarının itirilməsində dəstəkçi olacaqlar. Çünki bu, həmin qüvvələrin özləri üçün də çox ciddi bir zərbədir. Yəni onlara sual ediləcəkdir ki, siz nə məqsədlə bu qüvvələri maliyyələşdirirsiniz? Səbəb nədir, nə istəyirsiniz? Bu, onların ifşa edilməsi deməkdir. Demək olar ki, aralarında yaranan konfliktlər nəticə etibarı ilə radikal qüvvələrin maliyyədən məhrum olunmalarına gətirib çıxaracaq. Təbii ki, maliyyəsi olmayan təşkilat, bir gün də olsa fəaliyyət göstərə bilməz. Ona görə də, bu təşkilatlar özləri-özlərini məhvə doğru aparırlar.

***- Bir zaman eyni mövqedən çıxış edən Xədicə İsmayılla Əli Kərimli və ya Emin Milli ilə Müsavat başqanı Arif Hacılı bu gün bir-birinə rəqib gözü ilə baxırlar. Bu rəqibliyin başlıca səbəbini maliyyə bölgüsündən yaranan maraqların toqquşması ilə əlaqələndirmək olarmı?***

- Demək olar ki, adları çəkilən şəxslərin bir-birinə rəqib gözü ilə baxması maliyyə məsələləri ilə əlaqəlidir. Necə oldu ki, bir müddət bundan əvvəl bir-biri ilə mehriban olanlar indi bir-birinə düşmən kəsiliblər. Görünür, onlar nəyi isə bölüşə bilmirlər. Ümumiyyətlə, müxalifəti mehriban edən və onları bir araya gətirən məsələ ancaq pula bağlılıqlarıdır. Əgər bunların ciblərinə pul girmirsə, onda heç vaxt bir araya gələ bilməzlər.

**GÜLYANƏ**

# Yeniləşən cəmiyyətdə köhnəlmiş müxalifət

***Son illərdə Azərbaycanın iqtisadiyyatı dəfələrlə artıb, ÜDM göstəricilərinə görə də dövlətimiz regionda və dünyada öncül mövqeyini qoruyub-saxlayıb. Büdcə xərcləri artıb, yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşüb, işsizlik kəskin dərəcədə azalıb. Həmçinin, ölkədə işsizliyin aradan qaldırılması üçün effektli dövlət tədbirləri həyata keçirilməkdədir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının uğurla icra edilməsi isə regionlarla paytaxt arasındakı disbalansı aradan qaldırmaq və regionlarda məşğulluq səviyyəsini arzuolunan səviyyəyə çatdırmağa hesablanıb. Bütün bunlar isə, əhalinin həyat səviyyəsini daha da yüksəltdiyi üçün, təbii ki, vətəndaşların əksəriyyəti tərəfindən bu sahədə həyata keçirilən dövlət siyasəti tam dəstəklənir.***



### Müxalifət inkişafın qarşılığı olaraq özünü cəmiyyətə yeni simada təqdim edə bilmir

İntensiv inkişaf epoxasını yaşayan Azərbaycanda müxalifətin heç bir nüfuzu və çəkisi qalmayıb. Cəmiyyətin ictimai şüuru inkişaf edir, ictimai-siyasi proseslərə, baş verən yeniliklərə yeni baxış formalaşır. Müxalifət isə bu inkişafın qarşılığı olaraq, özünü cəmiyyətə yeni simada təqdim edə bilmir. Hələ də küçə və meydanlarda səs-küy yaratmaq, tribunalardan əsassız və absurd fikirlər səsləndirməyə meyillidirlər. Daha doğrusu, dağıdıcı müxalifətin bundan başqa heç bir potensialı və imkanı da yoxdur. Yəni bacarıqları bu çərçivədən kənara çıxa bilmir. Müxalifət düşərgəsi, elə bil, dünyada baş verən proseslərdən xəbərsiz, müxalifətin sivil fəaliyyətindən tamamilə məlumatsızdır. Yaxud da radikallar dünya təcrübəsindən özləri üçün bir dərs götürmək niyyətində deyillər.

Dünya təcrübəsindən bəllidir ki, sivil fəaliyyət göstərən müxalifət düşərgəsi yeni-yeni alternativ layihələr, proqramlar, təkliflərlə çıxış edir və haqlı olaraq nəticəyə ümid edir. Yəni sivil qaydada fəaliyyət göstərən, ictimai maraqlara xidmət edən qurumlar ictimai dəstəyə də arxalanmaqda haqlıdırlar. Görəsən, Azərbaycanda özünü müxalifətçi adlandıran hansı qrup, partiya, yaxud hansısa müxalifət düşərgəsinə məxsus siyasi məfkurə sahibi bu vaxta qədər yeni bir layihə irəli sürübmü? Müxalifət düşərgəsi kimi özünü təqdim edən qurumlardan hansısa birisi bu vaxta qədər, heç olmasa, bircə dəfə alternativ bir proqramla çıxış edibmi? Bəlkə radikallar hansısa təklif irəli sürüblər? Cəsarətlə deyə bilərik ki, Azərbaycan cəmiyyəti bu vaxta qədər sadalananların heç birinin şahidi olmayıb və ölkəmizdə müxalifət dedikdə, yalnız narazılıq üçün küçədə hay-küy salan bir neçə nəfəri təsəvvüründə canlandırır. Azərbaycan xalqının ötən əsrin 90-cı illərində gördüyü müxalifət 30 ilə yaxın müddətdə zərrə qədər dəyişməyib və hələ də köhnə adət-ənənələri ilə fəaliyyət göstərir. Yeni əsrin tələblərinə uyğun yeniləşən Azərbaycan cəmiyyətində müxalifət hələ də köhnəliyin qalığı kimi qalır. Bu düşərgəyə köhnəlmiş müxalifət desək, yanılmarıq.

### Müxalifətin uğursuzluğunun səbəbi hakimiyyətin nailiyyətlərinə alternativ variant ortaya qoya bilməməsidir

İndiki müxalifət cəmiyyətə modern dövrün tələblərilə uyuşan mesajlar ötürməkdə, gənclərin diqqətini cəlb etməkdə və bununla da, ətrafına müəyyən sayda elektorat toplamaqda tam acizdir. Ona görə acizdir ki, özlərini müxalifət adlandıranlar, əslində, narazılardan ibarət kiçicik bir qrupdan başqa bir şey deyillər. Təşkilatlanması, plan və proqramları olmayan, heç bir layihəsi ərsəyə gəlməyən balaca bir qurum, təbii ki, heç bir potensiala sahib ola bilməz. Həmçinin, elektoratı yox dərəcəsində olan təşkilatdan bundan artığını gözləmək belə olmaz. Məhz elə buna görə də, cəmiyyətin, ələlxüsus, Azərbaycan gəncliyinin də müxalifətdən gözləntiləri barədə danışmağa dəyməz. Ölkəmizin gəncləri də yaxşı bilir ki, qeyri-sağlam və uyğunsuz, hətta ölkəmizin əleyhinə fəaliyyət göstərən partiyalardan və qurumlardan yaxşı heç nə gözləmək olmaz. Bu sırada Azərbaycanda gəncliyin inkişafına yaradılan münbit şəraiti və dövlət proqramlarının həyata keçirilməsini, birinci olaraq ölkəmizin iqtisadi uğurları və dünya iqtisadi arenasında ciddi rezonans yaradan göstəriciləri fonunda qeyd etmək lazımdır.

Son dövrün iqtisadi böhranları nəticəsində inkişaf etmiş nəhəng ölkələrin belə məruz qaldığı məhrumiyyətlər, ağır sınaqlar və onların beynəlxalq arenada mövqelərinin müəyyən dərəcədə iflasa uğraması kimi kataklizmlər Azərbaycandan yan keçib. Çünki Azərbaycan dövləti siyasi-iqtisadi və sosial sahədə bütün riskləri nəzərə almaqla və onlardan maksimum yayınmaqla ölçülüb-biçilmiş və təmkinli, səbatlı siyasət yürüdür. Bunun nəticəsidir ki, Azərbaycan böhrandan zərər çəkmədi. Əksinə, dövlət bu ərəfədə bir sıra sahələrdə meqa-iqtisadi və infrastruktur layihələrini icra etməkdə davam etdi ki, bu da siyasi səbatlılığın və iqtisadi davamlılığın, dayanıqlılığın bariz nümunəsidir. Bütün bu nailiyyətlər əhali tərəfindən qiymətləndirilməyə və rəğbətlə qarşılanmaya bilməz. Çünki xalq bu uğuru öz gündəlik həyatında hiss edir. Təbii ki, dövlətin qazandığı uğurlar hər bir vətəndaş və gənc üçün uğurdur. Deməli, Azərbaycan dövləti və hakimiyyətinin əhalinin, eləcə də, gənclərin mütləq əksəriyyəti tərəfindən dəstəklənməsinin real iqtisadi, sosial, infrastruktur quruculuğu, beynəlxalq arenada uğurlu mövqe, uğurlu və müstəqil enerji siyasəti və kompleks şəkildə digər göstəricilərdən ibarət əsasları mövcuddur.

Bəs bütün bunların müqabilində, bu inkişaf və tərəqqi fonunda müxalifət nə iş görüb? Müxalif düşərgə siyasi mövqeyini möhkəmlətmək üçün hansı alternativ inkişaf proqramlarını təqdim edə bilib? Hansı yenilik, hansı layihə gətirib ölkəyə? Təbii ki, heç nə. Bu gün müxalifətin real uğursuzluğunun əsas səbəbi hakimiyyətin sadalanan nailiyyətlərinə alternativ variant ortaya qoya bilməməsidir. Müxalifət düşərgəsi çox yaxşı başa düşür ki, Azərbaycan hakimiyyəti ilə müqayisə də olunacaq deyil və məhz buna görə də, Azərbaycan gəncləri, ümumiyyətlə, Azərbaycan cəmiyyəti, cəmiyyətin bütün təbəqələri müstəqil inkişaf xətti tutan, dünyada və regionda liderlik göstəricilərini getdikcə artıran Azərbaycan dövləti ilə fəxr edir və qürur duyur. Azərbaycan cəmiyyəti ölkəmizin, məhz bu yolla inkişafının alternativsizliyini yaxşı başa düşür. Ona görə də, hər hansı müxalifət düşərgəsinin deyil, məhz Prezident İlham Əliyevin ölkəni etibarlı şəkildə gələcəyə aparan siyasəti ətrafında sıx birləşib.

**İnam HACIYEV**

# Erməni lobbisi ilə iş birliyi quran müxalifət cəzasız qala bilməz

Dağıdıcı xislətli müxalif ünsürlər düşdükləri böhranlı durumdan çıxa bilmədiklərini dərk etdiklərindən, çıxış yolunu milli və dövlətçilik maraqlarına zərbə vurmaqda görürlər. Bu sırada xalqına, dövlətinə xəyanət edərək ermənilərlə işbirliyi qurmaqdan çəkinməyən Emin Milli, Xədicə İsmayıl, Leyla Yunus və bu kimi digər məkrli şəxsləri korkoranə şəkildə müdafiə etməkdə, onlara dəstək nümayiş etdirməkdədirlər. Hansı ki, AXCP və Müsavat yetkililərindən fərqli olaraq, bir zaman qondarma hüquq müdafiəçiləri ilə eyni mövqedən çıxış etmiş Müsavat başqanının keçmiş müavini Qubad İbadoğlu, Əli Kərimli, Cəmil Həsənli və Arif Hacılının E.Millini, X.İsmayılı və L.Yunusu müdafiə edən mövqelərini kəskin şəkildə pisləyib. Q.İbadoğlu X.İsmayılı yalançı müxalif, saxta vətənpərvər adlandırıb: "Siz ey Vətən, millət, dövlət anlayışlarına gizli nifrətini zaman-zaman büruzə verən, əlacsız qalanda son çarə kimi "Çamur at, izi qalsın" prinsipi ilə mövcudluğunu sürdürən prinsipsizlər - yalançı müxaliflər, saxta vətənpərvərlər! Qulaqlarınızı açın və eşidin: mən təmsil olunduğum istənilən beynəlxalq və yerli platformada əsaslandırılmış müstəqil mövqedən çıxış edirəm, mövqeyim həmişə Azərbaycan dövlətinin və müstəqil vətəndaş cəmiyyətinin maraqlarının müdafiəsi üzərində qurulub".

Bir sözlə, fakt budur ki, Azərbaycanı istəməyən bəzi məkrli təşkilatların ayırdığı qrant Ə.Kərimli, A.Hacılı və digərləri üçün milli maraqlardan daha önəmlidir. Xaricdəki "söyüş qrupu"nu, eləcə də adlarını "hüquq müdafiəçi"ləri qoyan özləri kimi ünsürlərin himayədarları rolunda çıxış etməklə, bir daha xalqdan ayrı düşən qüvvələr olduqlarını nümayiş etdirdilər. Baxmayaraq ki, AXCP ilə Müsavat heç zaman bir araya gələ bilmir. Bir-birini sıradan çıxarmaq, sanki onların əsas fəaliyyət istiqamətləri olub. Ancaq bu məsələdə bir yerdədirlər. Çünki xarici qrant verən ağaları belə istəyir. ADP sədri Sərdar Calaloğlu da mətbuata verdiyi açıqlamasında Ə.Kərimli və A.Hacılını tənqid edib, onları ucuz şoular hesabına siyasi dividend qazanmağa cəhddə ittiham edib. ADP sədri S.Calaloğlu Ə.Kərimlinin xaricdən maliyyə dəstəyi almaq üçün hər cür çirkin addım ata biləcəyini də istisna etmir: "Digər tərəfdən, beynəlxalq təşkilatlardan özlərinin təşkilatlanması adı ilə maliyyə dəstəyi almaq üçün dərindən-qabıqdan çıxırlar. Bununla da, müxalifət adını monopoliyalaşdırırlar".



### "Milli Şura" əhəmiyyətsiz quruma çevrilib

S.Cəlaloğlu onu da bildirib ki, Ə.Kərimlinin özünü "radikal" adlandırmasının arxasında nə dövlətə, nə millətə, nə xalqa xeyir vermək məqsədi güdülür. Çünki Ə.Kərimli istər ölkədə, istərsə də ölkədən kənarda yaşanan geopolitik durumları, ölkədə baş verən müsbət prosesləri nəzərə almır və bir qayda olaraq, süni gərginlik yaratmaqla məşğuldur. Burada da yalnız bir niyyət var: mümkün qədər dünyanın demokratiyaya verdiyi dəstəyi özünə və partiyasına aid etmək: "Ancaq çox təəssüf ki, bu adamın özü demokratiya üçün, demokratiyanın inkişafı üçün heç bir iş görməyib. Bundan sonra da görəcəyini düşünmək sadəlövhlük olardı. Belə ki, onun özünün demokratiya haqqında anlayışı yoxdur. Bax, faciə də budur. Digər tərəfdən, ölkəmizdə milli maraqların təminatı ilə bağlı hər hansı məsələ müzakirə olunanda, biz bunları və Əli Kərimlini ortada görmürük".

ADP sədri AXCP rəhbərinin "Milli Şura"da oturaraq, milli-dövlətçilik maraqlarını satmaqla məşğul olduğunu da bildirib: "Ə.Kərimli bu gün də Rusiya layihəsinin əsas icraçılarından biridir. İ.Qəmbər vaxtında bunu anlayaraq, "Milli Şura"nı tərk etdi. Ə.Kərimli düşünür ki, Rusiya yenidən Azərbaycanı öz təsiri altına salmaq üçün hərəkətə keçər. Ona görə də, o və ətrafı bir alət kimi ortalığa düşəcəklər".

### Əli Kərimli müxalifətin üz qarasına çevrilib

AXCP sədri Ə.Kərimlinin müxalifəti gözdən salan, utanc gətirən addımları artıq Müsavatla yanaşı KAXCP, ADP, "REAL" və digər təşkilatlar tərəfindən kəskin şəkildə pislənilir. Bu səbəbdən də, "REAL" ilə AXCP arasında ciddi konfliktlər yaranıb. Daha doğrusu, onsuz da, sərin olan münasibətlər Ə.Kərimlinin düşük hərəkətlərindən sonra daha da gərginləşib. Xatırlatmaq lazımdır ki, bir müddət əvvəl, sosial şəbəkələrdə Ə.Kərimli ilə İlqar Məmmədov arasında virtual səsvermə kampaniyası keçirilmişdir. Bu kampaniyada İ.Məmmədov Ə.Kərimlini xeyli üstələmişdi. Bunun ardınca AXCP və "REAL" qruplarının bir-birlərini ən ağır ittihamlara məruz qoymaları onsuz da gərgin olan vəziyyəti daha da gərginləşdirir. Ə.Kərimli virtual səsvermə zamanı uduzduğunun fərqinə vardıqdan sonra heç bir sübuta və əsasa söykənməyən belə bir dırnaqarası fərziyyə irəli sürmüşdü ki, guya hakimiyyət İ.Məmmədovun virtual səs yığmasında müəyyən yardımlar göstərib. Ancaq "REAL"ın icraçı katibi Natiq Cəfərli bu arqumentlərlə rədd etmişdi: "Yəni onlar çox bəsit ritorikadan istifadə ediblər. Bu dəfə də belə iddiaların səslənməsi, açığı, "REAL"ın və İ.Məmmədovun nüfuzuna kölgə salmaq məqsədi daşıyırdı". N.Cəfərli İ.Məmmədovun həbsdə olduğunu əsas gətirərək, əlavə edib ki, Ə.Kərimlinin ittihamı absurddur: "Təəssüf ki, yenidən qarşı tərəfin aqressiyası, səviyyəsiz və aşağılayıcı sözləri ilə üzbəüz qaldıq".

Bir sözlə, Ə.Kərimlinin məsuliyyətsiz açıqlamaları, yaramaz siyasəti ilə AXCP-ni dağıtmaqla yanaşı, müxalifəti də qara günə qoyub. Məhz bundan çıxış edən İslam Demokrat Partiyasının sədri Tahir Abbaslı bəzi müxalif partiya sədrlərinin istefa vermələrinin vacibliyini söyləyib: "Müxalifət düşərgəsində iş o yerə çatıb ki, ağız deyəni qulaq eşitmir. Bir-birilərinin xətalarını, biabırçılıqlarını açmaqdan ötrü ötüşmə gedir. Özlərini o qədər nəzarətsiz və ərköyün hesab edirlər ki, nəinki iqtidarla, heç müxalifət düşərgəsinin özündə də fikir paylaşa və bölüşə bilmirlər. Kimlərsə hər şeyə birinci olmaq və sahib durmaq istəyirlər. Halbuki təkbaşına heç nəyi dəyişmək mümkün olmaz". Partiya sədri onu da qeyd edib ki, iqtidar da bu səbəbdən müxalifətlə əməkdaşlığa, danışıqlara maraq göstərmir: "İqtidar da görür ki, birlik yox, parlaqlıq və aydınlıq yox, məntiq və hikmət yox, geniş əhatə dairəsi olan ziyalı təbəqəsi olan şəxsiyyətlər yox, fürsətdən istifadə edib görüşləri öz xeyirlərinə həll edirlər. Və biləndə ki, barışıqlar milli və dövlət maraqlarından kənarda partiya maraqlarındadır, ya aşağılanır, geri çəkilsə sabah cəmiyyət sözünə baxmayacaq, ölkə Suriyanın, İraqın gününə düşəcək"

**İ.ƏLİYEV**

# "Rusiya problemin həllinə mane ola bilməyəcək"

"Hazırki vəziyyətdə Ermənistan özü-özünün quyusunu qazdı. Azərbaycanla müharibə etdiyi şəraitdə prezident respublikasından parlament respublikasına keçməklə vəziyyətini daha da ağırlaşdırdı. Artıq bundan sonra düşmən ölkədə sabitlik yaratmaq mümkün deyil". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Tahir Kərimli deyib. Onun sözlərinə görə, hazırki şəraitdə Ermənistanda tez-tez hökumət dəyişikliyi baş verəcək ki, bu da nəticə etibarilə ölkəni sabitlikdən çıxaracaq: "Bu, keçmiş prezident Serj Sarkisyanın oyunu idi. Biz bilirik ki, Sarkisyanın prezidentlik dövrü başa çatırdı və o, baş nazir vəzifəsi ilə hakimiyyətdə qalmaq üçün bu addımı ataraq Ermənistanı parlament respublikasına keçməsinə nail oldu. Amma Sarkisyan bununla batan ölkəsini daha da batırmış oldu".



T.Kərimli qeyd edib ki, artıq Ermənistan elə dərəyə girdab olub ki, onun bu dərədən çıxması mümkün deyil: "Hazırda düşmən ölkədə sanki hakimiyyət yoxdur və onu qurmaq mümkün deyil. Hakimiyyət qarşıdurmaları davam edir. Bu, öz mənfi nəticəsini verəcək. Ermənistan öz keçmiş siyasətini həyata keçirərək ölkədə baş verənləri Naxçıvan və digər baş verən təxribatlarla örtməyə çalışır".

Deputat vurğulayıb ki, Azərbaycan hakimiyyəti səbirlə gözləməkdədir: "Çünki, Azərbaycan tərəfi bilir ki, Ermənistan öz içindən çürüməkdə, dağılmaqdadır. Diplomatiya, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Bəzən bildirilir ki, nə üçün Azərbaycan hücum yolu ilə torpaqlarını azad etmir. Bu, əlbəttə mümkün olan məsələdir. Çünki, Azərbaycan ordusu istənilən vaxt bunu etmək qabiliyyətinə və gücünə malikdir. Amma məsələ onadır ki, əgər beynəlxalq hüquq 100 faiz Azərbaycanın tərəfindədirsə, o zaman bundan istifadə edərək şəhid vermədən torpaqlarımızı geri qaytarmağa çalışmalıyıq. Bu mümkün olmadıqda, Azərbaycan hərbi yola əl atacaq". Ermənistanda baş verən hadisələrin Rusiyada narazılıq yaradacağını dilə gətirən T.Kərimli əlavə edib ki, belə olan halda vəziyyət o həddə çatacaq ki, Rusiya torpaqlarımızın işğaldan azad olunmasına mane ola bilməyəcək və bununla da ərazi bütövlüyümüzü təmin edəcəyik.

# Deputat: "Ermənistanda hər kəsin ipi Rusiyanın əlindədir"



"Ermənistanda nə qədər hakimiyyət dəyişikliyi olursa-olsun, orada mahiyyət dəyişməyəcək. Çünki Ermənistan Rusiyanın vassalıdır və sərbəst siyasət həyata keçirmir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Fərəc Quliyev Ermənistan tərəfinin son təxribatlarına münasibət bildirərkən deyib. Onun sözlərinə görə, Ermənistan nə qədər müstəqil, bəzi siyasətçiləri Qərb, bəziləri fərqli yönümdə olduqlarını göstərməyə çalışsalar da, iplər Rusiyanın əlindədir: "Ermənistan Qərbi yumşaltmaqla ikitərəfli dəstək almağa çalışır. Düşmən ölkə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı da sərbəst qərar qəbul etmək imkanına malik deyil. Bir müddət etdiyim təklifdə də bildirmişdim ki, işğal olunmuş ərazilərin və Dağlıq Qarabağın rəy inteqrasiyası ilə bağlı qanun qəbul olunmalıdır. Hakim və katib tanınmalıdır. Bu dünya təcrübəsində də var. Bundan sonra ordu işə qarışmadan əhali orada öz torpaqlarına qayıtmaq uğrunda savaşa başlamalıdır".

Nə həmsədrlərin, nə də BMT-nin özü qətnamələri yerinə yetirmədiyini dilə gətirən F.Quliyev söyləyib ki, belə olan halda, iş Azərbaycanın öhdəsində qalır: "Azərbaycan kifayət qədər səbirlə davranır, bütün qurumlara məsələnin həlli yolunu bilirsinizsə, buyurun, həll edin dedi. Amma göründüyü kimi, söhbət artıq Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərdən çıxıb. Son təxribat Naxçıvanda baş verdi".

"Ermənistanın yeni baş naziri Nikol Paşinyan "Dağlıq Qarabağ" separatçı rejiminin danışıqlarda iştirakı ilə fikirlər səsləndirir. Lakin ona sual verilməlidir ki, Dağlıq Qarabağdan 100 kilometrlərlə aralıda yerləşən Naxçıvanda baş verənlərin bu rejimin nə aidiyyatı var. Bu, Ermənistanın icra etdiyi və Rusiya tərəfindən də dəstəkləndiyi layihədir. Hesab edirəm ki, belə təxribatlar davam edəcək və əvvəlkilərdən fərqlənməyəcək. Azərbaycan artıq məsələni hərbi yolla həll etmək üçün toparlanmalıdır", - deyə F.Quliyev əlavə edib.

# Azərbaycan Xalq Cümhuriyyəti müstəqillik ideyasını şüurlarda yaşatdı

***1. AXC-nin süqutunun birinci ən böyük səbəbi daşnak - bolşevik birliyinin Azərbaycanı müstəqil, demokratik görməməsi, onun milli varlığına nifrət etməsi idi.***

**2.** İkinci səbəb yerli kommunistlərin müstəqil Azərbaycanın əvəzinə, sovet Rusiyasının tərkibində sovet Azərbaycanı ideyasını müdafiə etmələri idi.

**3.** Bəzi xarici qüvvələrin Azərbaycan maraqlarına qəsd etmələri idi.

Yaşar Qarayev bunlarla əlaqədar yazırdı: “O da çox ibrətli və mənalı faktdır ki, o dövrdə dini və qövmi təəssüblə bağlı ən müxtəlif “ilhaq variantları” “İranla konfederasiya”, “Türkiyə ilə ilhaq” təklifləri) hamısı rədd olunmuş, məhz qeydsiz-şərtsiz suveren dövlət vahidi (MİLLİ RESPUBLİKA) səviyyəsində Azərbaycanın istiqlalı qorunub-saxlanmışdır. Bu taleyin özünün Azərbaycanın onun gələcəyinə bəxş etdiyi müstəsna tarixi şans idi.

Müstəqil Azərbaycan bu tarixi şansı əvvəllər də, özünün bütün yaxın və uzaq keçmişi boyu həmişə çeşidli etnik və geosiyasi hücum və təzyiqlərdən qorumalı olmuşdu. Yenə də belə oldu. Ölkədə beynəlmiləl səviyyədə və mahiyyətdə milli quruculuq işləri genişləndikcə, ortaq bolşevik-daşnak qəsdinin dairəsi də daraldı. Azərbaycan Cümhuriyyəti özünün müstəqilliyi əleyhinə çevrilmiş bu qəsdlərdən birincisinin qarşısını aldı - Qarabağa (Şuşa, Xankəndi, Əskəran, Dilican, Zəngəzur) soxulan (18 mart 1920) erməni ordusunu darmadağın edə bildi. Lakin daha qlobal və birbaşa qəsdin altmış minlik hərbi zərbə qüvvəsinə-bolşevik Rusiyasından hücuma keçən (16 aprel 1920) XI Ordunun təzyiqinə qarşı dura bilmədi. Dövrün ən böyük tarixi paradoksu da elə o oldu ki, Azərbaycanın milli suverenliyinə və dövlətçilik istiqlalına qarşı siyasi-hərbi müxalifətdə Azərbaycan və Türkiyə “bolşevikləri” rus XI Ordusu ilə eyni cəbhədə birləşdilər: türk kommunistləri Xəlil paşa, Rüfət bəy, Yaqub bəy, d-r Fuad Sabit “Mustafa Kamala köməyə tələsən” rusları Azərbaycana buraxmayan Cümhuriyyət hökumətini devirməyə çağırdılar.

Hələ bu da az imiş kimi, Bakı neft mədənlərində çalışan bütün iranlılar (Azərbaycanın Cənub yarısının nümayəndələri və onların “Ədalət” adlanan “kommunist təşkilatı” da) dövlət çevrilişi təşkil etmək və müstəqil Azərbaycan Cümhuriyyətini devirmək üçün Şimali Azərbaycanın bolşevik “Hümmət”i ilə və Rusiya Kommunist (bolşevik) Partiyasının Bakı Komitəsi ilə vahid bir cəbhədə birləşdi! “Ədalət”, “Hümmət” və bolşevik “Bakı Komitəsi” Bakıda keçirilən (11 fevral 1920) müştərək Qurultayda təşkilatca da rəsmən birləşdilər və vahid qərar qəbul etdilər: “Azərbaycanın fəhlə-kəndli kütlələri tanınmanın (söhbət Cümhuriyyətin bir dövlət kimi Rusiya tərəfindən tanınmasından gedir -Y.Q.) əleyhinədirlər”. Beləliklə, həm “ÖZ”lərinin, həm də “ÖZGƏ”lərin bu vahid, “beynəlmiləl” (rus, Anadolu türkü, İran azərisi...) cəbhəsinə qarşı Azərbaycan Parlamanı duruş gətirə bilmədi. Azərbaycanın milli istiqlalının qorunub-saxlanması, rus ordusunun Bakıya girmədən, keçib Atatürk hərəkatına (Anadoluya) yardıma getməsi və qan tökülməməsi şərti ilə AXC-nin rəhbərliyi hakimiyyəti Azərbaycan bolşeviklərinə təslim etməyə məcbur oldu”.

Y.Qarayev Azərbaycanın müstəqilliyini və bütün türklərin və azərbaycanlıların qanlı düşməni olan erməni vandalları haqqında və ona qarşı duran qüvvələrdən bəhs edərək yazırdı: “Barbarlıq, adamyeyənlik (vandalizm!), mədəniyyəti və memarlığı dağıtmaq müsabiqəsində birinci yeri “İslamiyyə”ni yandıran erməni daşnakları tutmuşdu. Humanizm və insanlıq əleyhinə, bəşər mədəniyyəti əleyhinə bu qəsdə qarşı vicdani-əxlaqi və mənəvi-humanitar fikrin ağrısı, üsyanı, harayı müsabiqəsində isə qələbə çələnginin “Həzin bir xatirə. İsmailiyyə” hekayəsi ilə “Yaşıl Qələm”in rəhbəri Seyid Hüseyn qazandı. Əslində, bu mənsur lirikadır, “İsmailiyyə”yə mədhiyyədir. Ədib vüqarımız və izzəti-nəfsimiz olan, xalqın arzudan və əməldən tikdiyi milli AZADLIQ VƏ İSTİQLAL MƏBƏDGAHI olan “milli əməllərimizin doğulduğu yer” kimi, “Azərbaycan hürriyyəti və istiqlaliyyəti, məfkurəsini bətnində bəsləyən və ərsəyə yetirən “sevimli bina” və “ana” kimi tərənnüm edir və istiqlalın buradakı sütunlara, daşlara həkk olan, yaddaş bir-bir bizim xatirəmizdə canlanır; sorağı Azərbaycana və bütün dünyaya buradan yayılan ilk Milli Məclis, ilk İstiqlal Bəyannaməsi, ilk bayraq və gerb, ilk himn, “NİCAT” və “SƏFA” maarif cəmiyyətləri, “SƏADƏT” ruhani cəmiyyəti, “QARDAŞLIQ KÖMƏYİ” idarəsi, “QAFQAZ MÜSƏLMANLARININ BİRİNCİ QURULTAYI”, “MUXTARİYYƏT” manifesti, Azərbaycanın tarixə və dünyaya səs salan ilk Müstəqillik və Azadlıq Bəyannaməsi.

Daşnak vandalı hədəfi düz seçmiş və bir atəşlə bir tarixi oda və güdaza vermək istəmişdi.

Lakin hekayə nikbin və lirik rəmzi bir ovqatla tamamlanır, müəllif bu məbədgahın həqiqətən yanması xəbərinə “YALANDIR, İNANMA!” - deyir, Bakıda “İsmailiyyə qətlgahı” vaqiəsini hədyan, şayiə elan edir. Və xəyallı, ümidli, fəryadlı epiloqda divanə bir inamla, oxucuya üz tutur: “Bilirmisiniz “İsmailiyyə”nin yandırıla bilmədiyini aləmə isbat edən bir həqiqət hankısıdır? Azərbaycan Parlamanı üzərindəki üçrəngli və səkkizguşə yıldızlı təmuc üçün Azərbaycan bayrağı!” (“İstiqlal”, 4 fevral 1920). Doğrudan da, həmin istiqlal bayrağının altında Cümhuriyyətin özünün vaxtında “İsmailiyyə”nin tarixi binası öz əvvəlki görkəminə qayıtdı...

AXC sözün, çağdaş Avropa mənasında, bütün Yaxın Şərqdə demokratik dövlət və cəmiyyət örnəyi idi. İstər mətbuatda, istərsə də sosial-siyasi qurumlarda tam bir polifoniya və plüralizm hakim idi. Parlamanda bütün əsas firqələr və milli azlıqlar təmsil olunmuşdu. Ölkədə çeşidli firqələr (“İttihad”, “Əhrar”, “Slavyan-rus ittifaqı” və “Daşnaksütyun” da daxil olmaqla) və onların mətbuat orqanları açıq fəaliyyət göstərirdi. 200-ə yaxın qəzet çıxırdı. Hətta bolşeviklər öz mətbuat orqanlarını (“Əxtər”, “Haqq”, “Zəhmət”, “Kommunist”, “Gənc işçi” və “Yaşıl qələm”ə qarşı “Qırmızı qələm” ədəbi birliyini) yaratmışdılar.

Azərbaycan Xalq Cümhuriyyəti, nəinki xalqımızın, ümumən Qoca Şərqin tarixinə daxil olmuş ilk demokratik respublika, Azərbaycan Milli Şurasının elan etdiyi ilk parlamentli dövlət olmuşdur. AXC-də müstəqil dövlətin bütün atributları - bayraq, gerb, dövlət dili vardı. Təəssüf ki, onlardan biri, daha doğrusu, dövlət dili, indiyədək geniş və hərtərəfli tədqiq edilməmişdir”.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, dövlətçilik tariximizdə mühüm yer tutaraq, bugünkü müstəqil Azərbaycan Respublikası onun varisi kimi inamla inkişaf etməkdədir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev AXC-nin 100 illiyilə əlaqədar imzaladığı Sərəncamda bu varisliyi belə səciyyələndirmişdir:

“XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək, milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər Məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad və demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub-saxlaya bildi. Ümummilli Lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşının özünə qaytararaq, milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən, müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini və himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May Gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin”.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**3.** Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 24 may

## Gülüş stresslə bağlı hormonların səviyyəsini azaldır

Bir çox həkimlərin apardığı müşahidəyə görə, əksər ürək problemləri təəssüf ki, vaxtında bu orqanın qayğısına qalmamaq və qorumamaq nəticəsində əmələ gəlir. Çəkisi artıq olanlar digərlərinə nisbətən ürək-damar xəstəliklərindən daha çox əziyyət çəkirlər. Belə ki, artıq çəki ürəyi daha intensiv işləməyə məcbur edir.

AZƏRTAC xəbər verir ki, ürəyin həmişə sağlam olması üçün vaxtaşırı profilaktik tədbirlərin aparılması mütləqdir. Bunun üçün ilk növbədə qidalanmaya ciddi nəzarət etmək, pəhriz saxlamaq lazımdır. Qida rasionu meyvə-tərəvəz, balıq, dəniz məhsulları, göyərti, qoz-fındıq, ağartı, qınlı paxlalı bitkilər, çovdar çörəyi və zeytun yağı ilə zəngin olmalıdır.

Çəkiyə nəzarət etmək və çox yeməmək də vacib şərtlərdən biridir. Ən mühüm məsələlərdən biri onurğa sütununu möhkəmləndirməkdir, çünki bütün orqanlar mərkəzi sinir sistemi ilə sıx əlaqədardır. Ürəyin "məşq" etdirilməsi də onu möhkəmləndirir, gərginliyə uyğunlaşmanı yaxşılaşdırır. Bunun üçün hər gün idmanla məşğul olmaq və səhər gimnastikası etmək lazımdır. Orqanizmin normal fəaliyyət göstərməsi üçün hər gün piyada gəzmək də əsas şərtlərdən biridir. Oturaq həyat tərzi nəticəsində orqanizmdə bütün mühüm proseslər, o cümlədən maddələr mübadiləsi yavaşıyır, immun sisteminin işi zəifləyir və bunun nəticəsində müxtəlif xroniki xəstəliklər-piylənmə, şəkərli diabet və insult inkişaf etməyə başlayır.

Gündə azı 20 dəqiqə parkda, bağda və ya yaşıllıqlar zonasında təmiz havada piyada gəzmək ürəyin müntəzəm "məşqlərə" uyğunlaşmasına kömək edir. Ürək-damar xəstəliklərindən əziyyət çəkənlərin vəziyyətini yaxşılaşdırmaq üçün sağlam gülüşə, xoş əhvali-ruhiyyəyə də ehtiyac var. İnsan güləndə sinir və ürək-damar sistemlərinin, tənəffüs yollarının fəaliyyəti və orqanizmin hormonal vəziyyəti yaxşılaşır. Bir çox tədqiqatlar nəticəsində sübut olunub ki, gülüş orqanizmdə stresslə bağlı hormonların səviyyəsini azaldır.

## Gün eynəklərinin üz quruluşuna uyğun seçilməsi tövsiyə olunur

Günəşin ultrabənövşəyi (UB) şüalarına uzun müddət məruz qalmaq gözün torlu qişasının zədələnməsinə və katarakt (mirvari suyu) kimi göz problemlərinə səbəb ola bilər. Bunun baş verməməsi üçün gün eynəklərindən istifadə etmək mütləqdir. Lakin gün eynəyi taxmaq çox böyük diqqət tələb edir.

Azərbaycan Tibb Universitetinin (ATU) mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, keyfiyyətsiz, UB şüaları keçirən şüşədən hazırlanmış gün eynəyi istifadə edildiyi zaman göz bəbəkləri böyüyür. Tünd şüşələr gözün təbii qorunma mexanizmini (bəbəyin parlaq işığa reaksiyası) pozur, lakin qoruya bilmir. Bu da zərərli şüaların gözə daha çox daxil olaraq torlu qişada zədələyici təsir yaratmasına səbəb olur. Uzun müddət ərzində gözdə miopiya, astiqmatizm, hətta iki göz arasında əlaqənin zəifləməsi və ikili görmə yarana bilər.

Gün eynəyi seçərkən diqqət edilməli məqamlar var. Belə ki, ilk olaraq eynəyi taxdığınızda bulanıq görürsünüzsə, şüşəsinin keyfiyyətsiz olduğundan əmin ola bilərsiniz.

## ELAN

**12.03.2009-cu ildə Kovba Timur Nikolayeviçin adına verilmiş seriya nömrəsi ABN 066831 olan sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**x x x**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Rzayev Vüsal Vüqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**x x x**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Yusifova Səidə Salman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**x x x**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Orucova Leyla Sənan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Robert Levandovski "Çelsi"yə keçir?



"Bavariya"nın hücumçusu Robert Levandovski karyerasını İngiltərənin "Çelsi" klubunda davam etdirə bilər. Bu həftə polşalı öz agenti ilə görüşüb gələcək karyerası haqqında danışacaq. Oyunçu özü "Real Madrid" klubuna keçmək istəyir. Lakin Çempionlar Liqasının yarımfinal oyununda ispanlara qarşı uğursuz oyunlardan sonra Levandovskinin keçid şansı azalıb.

Polşalı forvard 30 oyunda 29 qol vurmaqla ən yaxın izləyicisini 14 qol qabaqlayıb. Siyahıda sonrakı yerləri Nils Petersen ("Frayburq", 15), Mark Ut ("Xoffenxaym", 14), Kevin Folland ("Bayer Leverkuzen", 14) və Niklas Fulkruq ("Hannover") tutublar. Qeyd edək ki, Levandovski Bundesliqanın tarixində ardıcıl 3 dəfə bombardir olan ilk legionerdir.

## Karateçilərimiz IV Əlbəyaxa Döyüş Olimpiadasında uğur qazanıblar



Rusiyanın Barnaul şəhərində IV Əlbəyaxa Döyüş Olimpiadası və kosiki karate-do üzrə açıq Asiya kuboku yarışları keçirilib. AZƏRTAC xəbər verir ki, 15 növ üzrə keçirilən Olimpiadada kosiki karate yarışlarında 800 idmançı birincilik uğrunda mübarizə aparıb. Yarışda ölkəmizi 5 idmançı təmsil edib. Bunkay kumite üzrə komanda yarışlarında Azərbaycan millisi bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Kişilərin kumite yarışlarında 18 yaşdan yuxarı karateçilərin mübarizəsində Renat Kuper gümüş medal qazanıb. 12-13 yaşlı qızların mübarizəsində Sevinc Mövsümzadə mötəbər yarışı birinci pillədə başa vurub.

Kata yarışlarında 12-13 yaşlı karateçilərin yarışında Sevinc Mövsümzadə bir daha fərqlənərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 14-15 yaşlı idmançıların mübarizəsində Alina Bərziqarova ikinci olub. Kişilərin kata yarışlarında Nazim Mövsümzadə qızıl, Ruslan Bərziqyar gümüş, Renat Kuper isə "kiçik bürünc" medala sahib olublar.

## Konte "Çelsi"dən getmək istəmir



"Çelsi"nin baş məşqçisi Antonio Konte London klubunu tərk etmək niyyətində deyil. Qol.az-ın "The Telegraph"a istinadən yaydığı xəbərə görə, italiyalı mütəxxəsisin İngiltərə təmsilçisi ilə müqaviləni vaxtından əvvəl pozmaq istəmədiyi bildirilib.

Qeyd edək ki, A.Kontenin "Çelsi" ilə müqaviləsi gələn ilin iyununda başa çatır. London klubu onu istefaya göndərəcəyi təqdirdə, 9 milyon funt sterlinq təzminat ödəyəcək. Əlavə edək ki, "Çelsi"nin yaxın günlərdə baş məşqçisi ilə bağlı yekun qərar verəcəyi gözlənilir.

## Ağır atletika üzrə Azərbaycan birinciliyi keçiriləcək



Mayın 25-28-də Şüvəlandakı Ağır Atletika Akademiyasında 15 və 17 yaşadək yeniyetmə oğlan və qızlar arasında Azərbaycan birinciliyi keçiriləcək. AZƏRTAC xəbər verir ki, yarışda ölkənin bütün şəhər və rayonlarından idman cəmiyyətlərini, klubları, mərkəzləri, uşaq-gənclər idman məktəblərini təmsil edən 150-yə yaxın atlet iştirak edəcək. Yarışın keçirilməsində məqsəd ölkənin ən güclü yeniyetmə atletlərinin müəyyən edilməsi, ağır atletika idman növünün təbliğ və inkişaf etdirilməsi, dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması, həmçinin qarşıdakı beynəlxalq yarışlara hazırlıq və seçimdir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**